RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 39 (8632) ŞƏNBƏ, 20 fevral 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İLHAM ƏLİYEV MÖCÜZƏSİ

## Növbəti möcüzə isə Qarabağın cənnətə çevrilməsi olacaq

**Qəfil möcüzə baş verdi!**

**Azərbaycan hərbi əməliyyatlara başlayaraq 44 gün ərzində qudurmuş düşməni diz üstə çökdürdü!**

*İpə-sapa yatmayan, sülhə gəlməyən, özünü yekəxana və yekəbaş aparan Paşinyan Müzəffər Ali Baş Komandan İlham Əliyevin bütün şərtlərini qəbul etdi, məhvolma təhlükəsindən qorxaraq Ağdam, Kəlbəcər və Laçın rayonlarını qrafik üzrə, həm də döyüşsüz təslim etdi!*

*Kapitulyasiya sənədinin imzalanmasının təşəbbüsçüsü və vasitəçisi olan Rusiya əslində növbəti dəfə Ermənistanın xilaskarına çevrildi.*

30 il ərzində işğal etdiyi ərazilərdə özünə bunker, səngər, istehkam yaradan, yaşayış məskənlərini xarabalıqlara çevirən, meşələri qırıb faydalı qazıntı yataqlarını çapıb-talayan, torpaqları, xüsusən Şuşa şəhəri ilə Kəlbəcər və Laçın rayonlarını qaytaracağını ağlına belə gətirməyən Ermənistan İlham Əliyevin dəmir yumruğu qarşısında quzuya, müti qula çevrildi!

**Bu nə möcüzə idi?!**

**Xalq həmin xalq, döyüşənlər həmin vətənpərvər insanlar, ərazi həmin ərazi...**

**Düşmən də əvvəlki kimi arxalı və hiyləgər, özünü məğlubedilməz sayan...**

**Bəs nə dəyişib, nə baş verib?!**

**Niyə Birinci Qarabağ müharibəsində uduzduq, torpaqları əldən verdik, indi isə möhtəşəm qələbə qazanmışıq?!**

*Əgər 44 gün ərzində münaqişəyə son qoymaq, torpaqları azad etmək (hələ qorumaq hücuma keçməkdən daha asan və əlverişli sayılır) mümkün idisə, niyə bizi 30 illik məşəqqətə salan məğlubiyyət baş verdi?!*

*Necə oldu ki, Qarabağda doğulub böyüyən, onu canı və qanı ilə sevənlər, gözünü qırpmadan şəhidliyə yüksələnlər torpağı qoruya bilmədilər, amma Qarabağı görməyən, doğma yurd-yuvadan kənarda doğulan gənclərdən ibarət ordu dəmir yumruq kimi düşmənin başını qısa müddətdə əzdi?*

Sualı bir də təkrar edirik: nə dəyişib, nə baş verib?

Sualın cavabı həm sadə, həm mürəkkəbdir!

Həm də aydın və anlaşılandır.

Qarabağlıların təbirincə söyləsək, Birinci Qarabağ müharibəsində yiyə-vay dərdindən uduzmuşduq!

**Bəli, ötən əsrin 90-cı illərində millətin əsl yiyəsi, yol göstərəni, qabağına düşəni, səfərbər edəni, ordu yaradaraq onu silahlandıranı yox idi!**

Dünyanın çalxalandığı, qırmızı imperiyanın dağıldığı bir vaxtda baş verənlərdən müdrikcəsinə baş çıxardan, düzgün siyasət yürüdən, müstəqillik gəmisini təlatümlərdə, qasırğa və fırtınada məharətlə idarə edən, sualtı qayalardan qoruyaraq sağ-salamat düz istiqamətdə apararaq mənzil başına çatdıran təcrübəli kapitan yox idi!

Sualın mürəkkəb tərəfi isə "niyə yox idi" şəklində veriləcək növbəti sualdan doğur!

*Ardı 3-cü səh.*

## Azərbaycanın etibarlı dostu, səmimi müttəfiqi

### Ölkəmizin Pakistanla mühüm tərəfdaşlıq münasibətləri qarşılıqlı etimada və səmərəli əməkdaşlığa əsaslanır

**Cənub-Şərqi Asiyanın nəhəng dövlətlərindən biri olan Pakistan İslam Respublikası dünyanın əhali sıxlığına görə altıncı, müsəlmanların sayına görə isə İndoneziyadan sonra ikinci ölkəsidir.**

Pakistanın ərazisi 803940 kvadratkilometr sahəyə malik olub, Cənubda Benqal körfəzi, qərbdə Əfqanıstan və İran, şərqdə Hindistan və şimal-şərqdə Çin ilə həmsərhəd Cənub-Qərbi Asiyada yerləşən ən böyük ölkələrdən biridir.

Beynəlxalq sistemdə Pakistan Birləşmiş Millətlər Təşkilatının, Millətlər Birliyinin, Ümumdünya Ticarət Təşkilatının üzvü, Şanxay Əməkdaşlıq Təşkilatının müşahidəçi üzvü, inkişaf etməkdə olan ölkələrdən ibarət "G33"-ün, "77-ci Qrup"un fəal üzvlərindən biri kimi fəaliyyətini uğurla davam etdirməkdədir.

Pakistanın siyasi tarixi 1947-ci ildə Britaniyanın Hindistanı rəsmən iki hissəyə bölməsi və Pakistanın müstəqillik qazanması ilə başlanır. Bu gün Hindistanla Pakistan arasında sərhədlərin uzunluğu 2912 km-ə çatır. İki ölkə arasında yeganə keçid məntəqəsi şərq hissəsi Hindistanda, qərb hissəsi isə Pakistanda yerləşən Vaqah kəndidir. Kəşmir vilayətinin iki yerə parçalanması ilə Pakistanla Hindistan arasında mübahisəli ərazi problemi yaranmışdır.

*Ardı 5-ci səh.*

## Azərbaycanın Baş naziri Əli Əsədov Ankarada Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti fevralın 19-da Ankarada Heydər Əliyev Parkını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov Ümummilli Liderin parkdakı abidəsini ziyarət edib, önünə əklil qoyub.



## Vaksinasiya mərhələsində də pandemiya şərtlərinə əməl olunmalıdır

**"Bu gün COVID-19 əleyhinə bütün vaksinlərin 75 faizi cəmi 10 ölkənin payına düşür. Eyni zamanda 130-dan çox ölkə vaksinlərin bir dozasını da almayıb". Bu məlumatı BMT-nin Baş katibi Antonio Quterreş bildirib.**

Onun sözlərinə görə, COVID-19 insanların həyatını məhv etməyə və iqtisadiyyatı sarsıtmağa davam edir. Dünya əhalisinin vaksinasiya prosesi çətin ki, dürüst və bərabər hesab edilə bilər. Baş katib vaksinlərin ədalətli bölüşdürülməsinin qlobal ictimaiyyət qarşısında duran əsas mənəvi vəzifə olduğunu, pandemiya ilə mübarizə, iqtisadiyyatın bərpası üzrə koordinasiyalı səylərin və xüsusilə qlobal vaksinasiya planının hazırlanmasının zəruriliyini bildirib: "Böyük İyirmiliyə daxil olan ölkələr belə bir planın hazırlanması ilə məşğul olan fövqəladə operativ qrup yaratmalıdırlar".

Digər tərəfdən də koronavirusa yoluxanların sayı dünyada sürətlə artmaqda davam edir. Ümumdünya Səhiyyə Təşkilatının gündəlik hesabatında deyilir ki, dünyada koronavirusa yoluxanların sayı son sutka ərzində 363 mindən çox artıb və beləliklə, yoluxanların ümumi sayı 109 milyonu ötüb.

Yanvarın 18-dən Azərbaycanda da yeni növ koronavirusa qarşı vaksinasiya aparılır. İlk günlərdə peyvənd olunanlara artıq ikinci doza vurulur.

*Ardı 7-ci səh.*

## Bütün yollar Azərbaycandan keçir

### Prezident İlham Əliyevin növbəti təşəbbüsü 300 milyon insanın yaşadığı böyük coğrafiyada firavan gələcəyə təminat verir

**İbn Haldun deyirdi ki, coğrafi mövqe hər bir xalqın taleyidir. Əksər hallarda bir çox uğurlu coğrafi mövqeyə malik olan ölkələrin necə əzildiyinin, mövqeyi yaxşı olmayanların isə necə çiçəkləndiyinin şahidi oluruq.**

Coğrafi mövqe hər ölkənin taleyi olsa da, ondan düzgün faydalanmağı yalnız uğurlu lideri olan xalqlar bacarır.

44 günlük Vətən müharibəsində əldə edilən tarixi zəfər Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə yanaşı, Ermənistan ərazisindən Naxçıvana birbaşa nəqliyyat dəhlizinin yaradılması ideyasını da reallaşdırdı. 10 noyabr Bəyanatının imzalanmasından heç 100 gün keçməmiş Azərbaycan Prezidenti Horadiz-Ağbənd dəmir yolu xəttinin tikilməsinə start verdi. Qeyd etmək lazımdır ki, Horadizdən Ağbəndə qədər 100 kilometrlik dəmir yolu xətti Azərbaycan Dəmir Yolları ASC tərəfindən bərpa ediləcək.




*Ardı 5-ci səh.*

## Tənəzzülə uğrayan Ermənistan yeni siyasi xaosa sürüklənir

**Ermənistanda Nikol Paşinyan hakimiyyəti ilə sabiq iqtidar təmsilçiləri arasında kəskinləşən qarşıdurma ölkədə yeni xaos formalaşdırmaqla ictimai-siyasi proseslərin daha gərgin mərhələyə qədəm qoyduğunu göstərir.**

Xüsusilə müharibədəki məğlubiyyətlər fonunda sosial narazılıqlardan istifadə edən Sarkisyan-Koçaryan koalisiyasının revanş istəyi, habelə baş nazirin istefasını tələb edən "Vətənin qurtuluşu hərəkatı" ilə mütəmadi görüşlər keçirməsi vəziyyətin daha da qarışacağını göstərir.

Proseslər göstərir ki, Sarkisyan-Koçaryan koalisiyası yaranmış vəziyyətdən istifadə edərək ölkədəki xaosu daha da dərinləşdirməyə çalışır. Bununla da sabiqlər yenidən Ermənistanda hakimiyyət başına qayıtmağı düşünürlər. Əsas niyyət davam edən etirazlar nəticəsində Yerevana qarşı müqavimət və itaətsizlik təşkil etmək, bununla xaotik durumun yaradılmasına nail olub, güc yolu ilə olsa belə, hakimiyyəti qəsb etməkdir.

Müharibədəki məğlubiyyət Ermənistanı elə bir uçuruma yuvarladıb ki, xilası mümkün deyil. Bütün bunlar, o cümlədən Koçaryan və Sarkisyan kimi müharibə cinayətkarlarının iqtidarı dövründən yığılıb qalmış ağır problemlər hazırkı hakimiyyəti çətin vəziyyətdə qoyub.

Bu xüsusda "Armenianreport.com" portalında Tevos Arşakyanın müəllifi olduğu məqalə diqqət çəkir. Qeyd olunur ki, əgər 2018-ci ilin yazında Paşinyanın əvəzinə başqa birisi xalqı Sarkisyanı devirməyə yönəltsəydi, o da uğur qazanacaqdı.

*Ardı 7-ci səh.*

# Ankarada 1-ci Türk Dünyası Meteorologiya Forumu başa çatıb

**Fevralın 19-da Ankarada 1-ci Türk Dünyası Meteorologiya Forumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay forumda iştirak ediblər.

Türkiyənin Meteorologiya Baş İdarəsinin yaradılmasının 84-cü ildönümünə həsr olunan forumda türkdilli ölkələrin meteorologiya qurumlarının beynəlxalq platformalarda birgə fəaliyyətinin genişləndirilməsi məsələləri müzakirə olunub.

Tədbirdə əvvəlcə Azərbaycanın ekologiya və təbii sərvətlər naziri **Muxtar Babayev** çıxış edərək deyib ki, son dövrlər iqlim dəyişmələrinin və onun fəsadlarının hər birimizin həyatına necə təsir etdiyi aydın şəkildə görünür. Dünyanın bir hissəsində daşqınlar və qasırğalar baş verərkən, digər bölgələrdə həddindən artıq isti hava və su çatışmazlığı hökm sürür. İnkişaf etməkdə olan ölkələrin iqtisadiyyatları, xüsusilə kənd təsərrüfatı, turizm, nəqliyyat, kommunal, səhiyyə sektorları dəyişkən meteoroloji hadisələrə qarşı daha həssas və daha az dayanıqlıdır. Təbii fəlakətlərə meyilli, həmçinin təhlükəyə dair məlumatı vaxtında vermək və ya fəlakəti səmərəli şəkildə idarə etmək imkanlarına malik olmayan ölkələrdə problem daha da kəskinləşir. Məsələnin həlli bir tərəfdən təbii fəlakətlərə qarşı müvafiq infrastrukturun yaradılmasıdır. Digər tərəfdən isə təhlükələri xəritələşdirmək, həssas nöqtələri müəyyənləşdirmək, ekstremal hava şəraitində təcili hərəkətə imkan verən erkən xəbərdarlıq sisteminin qurulması olduqca aktualdır. Hətta bir neçə dəqiqə öncə verilmiş xəbərdarlıq insanları xilas etməyə və iqtisadi itkiləri azaltmağa kömək edə bilər. Dünyanı sınağa çəkən qlobal iqlim dəyişmələri çağırışlarına hazırlıqlı olmaq üçün ölkələrimizin meteorologiya xidmətləri innovativ texnologiyalara malik olmaqla bir-birini tamamlamalı, qarşılıqlı əməkdaşlıq çərçivəsində fəaliyyət göstərməlidirlər.

Qeyd etmək istəyirəm ki, meteorologiya sahəsinin modernləşdirilməsi üçün dövlətimiz tərəfindən geniş imkanlar yaradılır. Əhalinin və iqtisadiyyatın hava-iqlim şəraitindən asılı olan sahələrinin meteoroloji təhlükəsizliyinin təmin edilməsi daim diqqət mərkəzində saxlanılır. Təhlükəli meteoroloji hadisələrə nəzarətin gücləndirilməsi, proqnoz və erkən xəbərdarlıq sisteminin təkmilləşdirilməsi üçün meteorologiya sahəsi modernləşdirilir. Ölkəmizdə meteoroloji stansiyalar avtomatlaşdırılıb, iqlim məlumatlarının idarə olunması və müasir telekommunikasiya sistemi quraşdırılıb.

Meteoroloji xidmətin müasir standartlar səviyyəsinə çatdırılması üçün beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsi zəruriliyini vurğulayan nazir bildirib ki, Azərbaycanda proqnozların keyfiyyətinin artırılması məqsədilə 20 ildən artıqdır ki, "TURKMETCAP" proqramı tətbiq edilir. Peyk məlumat mübadiləsi sistemi ilə hava proqnozlarının hazırlanmasında istifadə olunan lazımi faktiki məlumatlarla yanaşı, çoxsaylı proqnoz xəritələri, rəqəmsal modellərin nəticələri əldə olunur, informasiya mübadiləsi aparılır. Forumun iştirakçısı olan türkdilli ölkələrlə ətraf mühitin müxtəlif sahələri, o cümlədən meteorologiya sahəsi üzrə ikitərəfli formatda səmərəli əməkdaşlıq həyata keçirilir. Bununla yanaşı, türkdilli ölkələrin regional platformalar, o cümlədən "Xəzər dənizinin hidrometeorologiyası və çirklənməsinin monitorinqi" üzrə Xəzəryanı Ölkələrin Koordinasiya Komitəsi çərçivəsində meteorologiya sahəsində əməkdaşlıq davam etdirilməkdədir. Lakin bu sahədə əməkdaşlığın daha intensiv olmasını vacib hesab edirik.




Ermənistanın həyata keçirdiyi işğalçılıq siyasətinin Azərbaycan təbiətinə, bioloji müxtəlifliyə, bütövlükdə, regionun ekoloji durumuna ciddi ziyan vurduğunu diqqətə çatdıran M.Babayev deyib ki, uzun illər ərzində işğal altında olmuş ərazilərdə yerləşən hidrometeoroloji infrastruktur sıradan çıxarılıb. Hazırda həmin ərazilərdə ekoloji qiymətləndirmə və bərpa işlərinə başlanılıb. Yenidənqurma işlərində "yaşıl" texnologiyaların tətbiqi həmin əraziləri yüksəkkeyfiyyətli ekoloji mühit və "yaşıl enerji" məkanına çevirəcək. Tezliklə müasir avtomat sistemlərin tətbiqi ilə meteoroloji müşahidələrin bərpası planlaşdırılır. Bu tədbirlər həm iqlim dəyişmələrinə təsirlərin azaldılması, həm də bu təsirlərə daha dayanıqlı olmağa imkan verəcək.

Nazir deyib: "Meteoroloji infrastrukturun təhlükəli meteoroloji hadisələrin vaxtında proqnozlaşdırılmasında və zəruri qabaqlayıcı tədbirlərin görülməsində böyük rolu var. Gələcək planlarımızın uzlaşdırılması və birgə fəaliyyətimiz iqlim çağırışlarına dayanıqlı olmağa zəmin yaradacaq. Bu baxımdan türkdilli ölkələrin meteorologiya sahəsinə cavabdeh qurumları arasında sıx əməkdaşlığı vacib hesab edirəm".

❖ ❖ ❖

Sonra Türkiyənin kənd təsərrüfatı və meşəçilik naziri Bəkir Pakdəmir, Qazaxıstanın, Qırğızıstanın, Özbəkistanın, Türkmənistanın, Şimali Kipr Türk Respublikasının müvafiq qurumlarının rəsmilərinin çıxışları dinlənilib.

❖ ❖ ❖

Azərbaycan Respublikasının Baş naziri **Əli Əsədov** forumda çıxış edib.

Forum iştirakçılarını salamlayan Baş nazir bildirib ki, biz Türkiyənin iqlim dəyişiklikləri ilə mübarizədə səylərini yüksək qiymətləndiririk. Bildiyiniz kimi, Türkiyə bir neçə gün bundan əvvəl bu istiqamətdə yeni hədəflər və yol xəritəsi açıqlayıb. Əminik ki, bu, Türkiyənin qlobal istiləşməyə qarşı mübarizəsinə yeni töhfələr verəcək.

Türkdilli ölkələrin birliyinin, qardaşlığının əhəmiyyətini vurğulayan Baş nazir vurğulayıb ki, bu, həm ölkələrimiz, həm xalqlarımız, həm də bölgəmiz üçün önəmli amildir. Biz uzun illərdir ki, bu birliyi nümayiş etdiririk.

Baş nazir Əli Əsədov çıxışına davam edərək deyib:

- Fürsətdən istifadə edərək rəşadətli və qəhrəman Azərbaycan Ordusunun Qələbəsi ilə nəticələnən 44 günlük müharibə zamanı bizə siyasi və mənəvi dəstək verdiyinə görə hörmətli Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla, əziz qardaşım, hörmətli Fuat Oktay bəy də daxil olmaqla, Türkiyə Respublikasının rəhbərliyinə və bütün qardaş Türkiyə xalqına bir daha dərin təşəkkürümüzü bildiririk. Biz müharibənin ilk saatlarından Türkiyənin dəstəyini hiss etdik. Bütün səviyyələrdə qardaş Türkiyə Ermənistanın təxribatını qətiyyətlə pislədi, Azərbaycanın tək olmadığını açıq bəyan etdi. Bir önəmli faktı da qeyd etmək istərdim. Mənfur düşmən 30 ilə yaxın müddətdə Azərbaycanın işğal olunmuş torpaqlarında ekoloji terror törədib. Qədim tarixə, nadir maddi və mənəvi irsə, özünəməxsus flora və faunaya, zəngin yeraltı və yerüstü sərvətlərə malik olan Qarabağ düşmən tərəfindən vəhşicəsinə istismar edilib. Regionun meşə örtüyü məqsədli şəkildə məhv edilib, münbit torpaqlar, su ehtiyatları ekoloji və radioaktiv çirklənməyə məruz qoyulub. Bölgənin təbii landşaftı ciddi deformasiyaya uğrayıb. Qeyri-qanuni olaraq təbii sərvətlərin istismarı və mənimsənilməsi həyata keçirilib. Hətta uzun illər qeyri-qanuni məskunlaşmadan sonra əzəli torpaqlarımızı boşaldarkən düşmən ağacları kəsib, meşələrimizi məhv edib. İşğaldan azad edilmiş ərazilərdə ekoloji vəziyyətin bərpası üçün kompleks tədbirlər görüləcək. Bu torpaqlar "yaşıl enerji" zonasına çevriləcək. Keçmiş köçkün əhalimiz böyük qayıdış proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdacaq.

Təsadüfi deyil ki, bu yaxınlarda dövlətimizin başçısı, Prezident İlham Əliyev tərəfindən təsdiqlənən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində digər məsələlərlə yanaşı, qlobal iqlim dəyişikliklərinin miqyasının azaldılması, təmiz ətraf mühitin təmin olunması və Azərbaycanın yaşıl artım ölkəsinə çevrilməsi yaxın onilliyin əsas strateji istiqaməti kimi göstərilib.

COVID-19 pandemiyası səbəbindən sərhədlərin bağlandığı bir vaxtda türkdilli dövlətlərin belə bir mühüm forum çərçivəsində bir araya gəlməsi çox rəmzi xarakter daşıyır. Forum iştirakçısı olan türkdilli ölkələrlə müxtəlif sahələr üzrə səmərəli əməkdaşlığımız davam etdirilir. Məhz belə qarşılıqlı əməkdaşlıq əlaqələri regionda geosiyasi mənzərənin müsbət dəyişikliklərə gətirib çıxarmasına səbəb olub. Azərbaycan Respublikası qlobal iqlim dəyişikliklərinin təsirlərinin yumşaldılması təşəbbüsünə töhfə olaraq 2030-cu ilədək istilik effekti yaradan qazların emissiyasının səviyyəsinin 35 faiz azaldılmasını qarşıya hədəf qoyub. Qeyd etmək lazımdır ki, Paris Sazişinin həyata keçirilməsi dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün mühüm əhəmiyyət kəsb edir və emissiyaların azaldılmasına imkan verə biləcək yol xəritəsi funksiyasını daşıyır. Keçən il noyabrın 11-də qardaş Türkiyənin təşəbbüsü ilə "Gələcəyə nəfəs ol!" kampaniyası çərçivəsində ölkəmizdə də keçirilən ağacəkmə aksiyasını xoş təəssüratla xatırlayıram. Kampaniya çərçivəsində aksiyalarımızı davam etdiririk və inanırıq ki, bu tədbirlər iqlim dəyişikliklərinə qarşı mübarizədə böyük rol oynayacaq. Bugünkü tədbir sərhəd tanımayan meteorologiya məsələlərinə həsr olunub. Hesab edirəm ki, bu sahədə məlumat və təcrübə mübadiləsi türkdilli ölkələr arasında əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsinə geniş imkanlar yaradacaq. Forumun işinə müvəffəqiyyətlər arzulayıram.

❖ ❖ ❖

Forumda Türkiyə Respublikasının Prezidenti **Rəcəb Tayyib Ərdoğanın** məktubu oxunub.

Məktubda deyilir: "Türk dünyası olaraq geridə qoyduğumuz dövrdə, koronavirus pandemiyası səbəbindən dostlarımız və sevdiklərimiz daxil olmaqla bir çox insanı itirməyin ağrısını yaşadıq. Ancaq eyni dövrdə 30 illik işğaldan sonra Qarabağın ana Vətəni ilə yenidən qovuşmasının sevincini də ürəyimizdə hiss etdik. Azərbaycanlı qardaşlarımı 44 gün davam edən şanlı mübarizələri ilə böyük bir Zəfərə imza atmaları münasibətilə bir daha təbrik edirəm.

Həm Qarabağ müharibəsi, həm də pandemiya dövründə yaşadıqlarımız, türk dünyasının müdafiədən diplomatiyaya, səhiyyədən əkinçiliyə, turizmdən enerjiyə qədər hər sahədə birlik, həmrəylik və bərabərliyinin vacibliyini göstərdi. Eyni dildə danışan, eyni dinə inanan, tarixi bir, mədəniyyəti bir 300 milyonluq çox böyük bir ailə olduğumuzu bu vəsilə ilə təkrar gördük. Ailə üzvləri olaraq qarşıdakı dövrdə əsas məsuliyyətimiz bu əlaqələri gücləndirmək və aramızdakı əməkdaşlığı daha da artırmaq olmalıdır. "Türk Dünyası Meteorologiya Birliyi"nin yaradılması təşəbbüsünün bu istiqamətdə atılan mühüm bir addım olduğunu düşünürəm".

Türkiyə Prezidenti forumun işinə uğurlar arzulayıb.

❖ ❖ ❖

Daha sonra Türkiyə Respublikasının Vitse-prezidenti **Fuat Oktay** çıxış edərək Azərbaycanın Baş naziri Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyətinin qardaş ölkəyə rəsmi səfəri çərçivəsində forumda iştirakından məmnunluğunu bildirib.

Meteoroloji hadisələrin bütün cəmiyyətlərə ciddi təsir göstərdiyini vurğulayan Vitse-prezident bildirib ki, ildənilə təsirini daha da artıran iqlim dəyişikliyi meteoroloji fəlakətlərin intensivliyinin artmasına səbəb olub. Qlobal istiləşmə dünyada ekosistemin və insanların ayaqlaşa bilmədiyi qədər sürətli dəyişikliklərlə müşahidə edilir. Hər gün dünyanın müxtəlif bölgələrində sel, qasırğa, quraqlıq və meşə yanğınlarına dair xəbərlər yayımlanır.

Təbii fəlakətlərin insan tələfatı ilə yanaşı, iqtisadiyyata, xüsusən kənd təsərrüfatına ciddi ziyan vurduğunu deyən Fuat Oktay vaxtında verilmiş dəqiq proqnozların, xəbərdarlıqların və bu fəsadlara qarşı dayanıqlılığın əhəmiyyətini diqqətə çatdırıb. Buna görə də iqlim dəyişikliyinə qarşı səylərin birləşdirilməsinin, əməkdaşlığın və təcrübə mübadiləsinin genişləndirilməsinin önəmini qeyd edən Vitse-prezident bu baxımdan Türk Dünyası Meteorologiya Birliyinin yaradılmasının vacibliyini vurğulayıb. Bildirib ki, bu yolla həm iqlim dəyişikliyi, həm də meteoroloji fəlakətlərə qarşı mübarizə imkanlarını da genişləndirmək mümkündür.

Dil, tarix, mədəniyyət və din birliyi ilə böyük bir ailə olan türkdilli ölkələrin Türk Dünyası Meteorologiya Birliyi çərçivəsində əməkdaşlığının vaxt itirmədən gücləndirilməsinin zəruriliyini qeyd edən Fuat Oktay forum nəticəsində türk dünyasında meteorologiya sahəsində qurulacaq işbirliyinin iqlim dəyişikliyi ilə mübarizədə türkdilli ölkələr üçün dönüş nöqtəsi olacağına əminliyini bildirib.

❖ ❖ ❖

Forumun yekununda Türk Dünyası Meteorologiya Birliyinin yaradılması barədə qərar qəbul olunub.

# Ankarada İqtisadi Əməkdaşlıq üzrə Azərbaycan-Türkiyə Hökumətlərarası Komissiyanın iclası keçirilib

## İclasdan sonra mətbuat konfransı olub





**Fevralın 19-da Ankarada Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun və Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın iştirakı ilə İqtisadi Əməkdaşlıq üzrə Azərbaycan-Türkiyə Hökumətlərarası Komissiyanın iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov və Vitse-prezident Fuat Oktay iclasda çıxış ediblər.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin, təhsil naziri Emin Əmrullayevin, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyevin, xarici işlər nazirinin müavini Xələf Xələfovun, SOCAR-ın prezidenti Rövnəq Abdullayevin, Naxçıvan Muxtar Respublikasının baş naziri Səbuhi Məmmədovun və digər rəsmi şəxslərin qatıldığı iclasda qarşılıqlı əməkdaşlığa dair bir sıra sənədlər imzalanıb.

Baş nazir Əli Əsədov və Vitse-prezident Fuat Oktay Hökumətlərarası Komissiyanın Protokolunu imzalayıblar.

Sonra mətbuat konfransı olub.

Türkiyə Respublikasının Vitse-prezidenti **Fuat Oktay** mətbuat konfransında çıxış edərək İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın növbəti iclasında imzalanan 138 maddədən ibarət Protokolun ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini bildirib. Vitse-prezident deyib ki, iclasda əməkdaşlığımızın yol xəritəsini təkmilləşdirdik. COVID-19 pandemiyasının mənfi təsirlərinə baxmayaraq, ikitərəfli ticarət əlaqələrimiz 2020-ci ildə əvvəlki illə müqayisədə 14 faiz artaraq, 4,6 milyard dollara çatıb. Hədəfimiz 2023-cü ildə 15 milyard dollarlıq ticarət dövriyyəsinə çatmaqdır.

"2019-cu ilin sentyabrında Bakıda keçirdiyimiz toplantıda iqtisadi və ticari əlaqələrimizi inkişaf etdirmək üçün önəmli qərarlar qəbul etmişdik. Pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, bu qərarların 62 faizi bir il ərzində icra edildi. Bugünkü iclasımızda isə sənaye və texnologiya, enerji, müdafiə, mədəniyyət və turizm, nəqliyyat və kommunikasiya, kənd təsərrüfatı və qida təhlükəsizliyi, təhsil, gənclər və idman kimi sahələrdə əməkdaşlıq imkanlarımızı müzakirə etdik və bir sıra önəmli qərarlar qəbul olundu. Xüsusi vurğulamaq istərdim ki, razılığa gəldiyimiz fəaliyyət istiqamətləri arasında Ermənistanın işğalından azad edilən bölgələrin inkişafı və yenidən dirçəldilməsi məsələsi prioritet sahələrdəndir", - deyə Fuat Oktay vurğulayıb.

Vitse-prezident qeyd edib ki, Qarabağda "ağıllı şəhər" modeli ilə dövrümüzün tələblərinə uyğun infrastrukturun yaradılması, kommunikasiya və enerji xətlərinin yenilənməsi, "Yaşıl enerji" konsepsiyasının həyata keçirilməsi, kənd təsərrüfatının dirçəldilməsi, mədəni abidələrin bərpası üçün azərbaycanlı qardaşlarımıza hər cür dəstək verəcəyik.

Fuat Oktay bildirib ki, bu gün qəbul edilən qərarlar iqtisadi əməkdaşlığımızı konkret addımlarla ticarətdən enerjiyə, nəqliyyatdan təhsilə, kənd təsərrüfatından səhiyyəyə qədər bir çox sahələrdə daha yüksək səviyyəyə çatdırmaqda qətiyyətli olduğumuzun göstəricisidir.

❖ ❖ ❖

Mətbuat konfransında çıxış edən Baş nazir **Əli Əsədov** səfərin çox uğurlu keçdiyini, iki gün ərzində məhsuldar görüşlərin olduğunu və bir sıra mühüm sənədlərin imzalandığını bildirib. Qeyd edib ki, İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın bugünkü iclası Azərbaycan ilə Türkiyənin fikirlərinin bütün məsələlərdə üst-üstə düşdüyünü bir daha göstərdi. Baş nazir dedi: "Bir çox məsələləri müzakirə etdik. Gündəlik kifayət qədər geniş idi və heç bir məsələ ilə bağlı fikir ayrılığı yoxdur. Niyyətimiz, amalımız birdir. Bu da ondan ibarətdir ki, Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələri bundan sonra da uğurla inkişaf etsin və ölkələrimiz daha da güclü olsun".

İclasda bir sıra önəmli qərarların qəbul edildiyini, tədbirlər planının təsdiqləndiyini vurğulayan Baş nazir diqqətə çatdırıb ki, qardaş ölkələrimizin siyasi əlaqələri barədə də geniş fikir mübadiləsi aparıldı. Bir daha əmin olduq ki, bu əlaqələr strateji xarakter daşıyır və iki qardaş xalqın iradəsini əks etdirir. Biz bütün beynəlxalq təşkilatlar çərçivəsində vahid mövqedən çıxış edirik və bir-birimizi hər zaman dəstəkləyirik. Təbii ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın möhtəşəm Qələbəsinə də toxunduq. Fürsətdən istifadə edərək hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla, Azərbaycanın haqq işinə dəstək verdiyinə görə Türkiyə Respublikasının rəhbərliyinə, bütün qardaş türk xalqına bir daha dərin təşəkkürümüzü bildiririk. Bu böyük siyasi və mənəvi dəstək bizə əlavə güc verdi. Bu dəstək bütün dünyaya bir mesaj idi ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Azərbaycan da, öz növbəsində, bütün məsələlərdə beynəlxalq miqyasda daim Türkiyəni dəstəkləyir.

İqtisadi əlaqələrə dair geniş müzakirələrin aparıldığını söyləyən Əli Əsədov deyib: "İqtisadi tərəfdaşlığımız, böyük inkişaf potensialımız var. Mövcud potensialın dəyərləndirilməsi və xalqlarımızın rifahı naminə yüksəldilməsi istiqamətində bundan sonra da fəaliyyətimizi davam etdirəcəyik. Biz iqtisadi-ticari sahədə münasibətlərimizi genişləndirmək niyyətindəyik. Həm dünən keçirdiyimiz görüşlərdə, həm bugünkü iclas zamanı hər iki tərəf bunda maraqlı olduğunu bir daha təsdiqlədi. Ötən il Bakıda keçirilmiş Yüksəksəviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasında imzalanan və artıq hər iki ölkə tərəfindən təsdiqlənən Preferensial Ticarət Sazişinin rolunu da bu baxımdan yüksək qiymətləndiririk. Qarşılıqlı sərmayələrin həcmindən məmnunluğumuzu bildirdik və qarşılıqlı sərmayə qoyuluşu bundan sonra da davam etdiriləcək. Çünki bu yatırımlar xalqlarımızın rifah halını yaxşılaşdırır. Azərbaycan və Türkiyə vətəndaşlarının təkcə şəxsiyyət vəsiqəsi ilə ölkələrimizə sərbəst şəkildə səfər etməsi barədə sənəd təsdiqlənib. Bu addım ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrinin inkişafına yeni nəfəs verəcək, ticarət dövriyyəsinin, sərmayə qoyuluşunun, turist axınının artmasına müsbət təsir göstərəcək".

Nəqliyyat sahəsində əməkdaşlıq barədə fikir mübadiləsinin aparıldığını qeyd edən Baş nazir bildirib ki, pandemiyaya baxmayaraq, ötən il nəqliyyat sahəsində əməkdaşlığımız uğurlu olub. Belə ki, əksər ölkələr öz aralarında tranzit-nəqliyyat əlaqələrini dayandırdı, Azərbaycan və Türkiyə isə bu istiqamətdə əməkdaşlığını davam etdirdi və biz bu sahədə artıma nail olduq. Bundan əlavə, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə yaranan yeni geosiyasi və geoiqtisadi reallıq barədə də fikir mübadiləsi apardıq. Bu reallıq iki qardaş ölkə arasında münasibətlərə yeni nəfəs verəcək, iqtisadiyyatımızın və ticarətimizin artımına xidmət edəcək.

"Bildiyiniz kimi, artıq işğaldan azad olunan ərazilərdə yenidənqurma və bərpa işlərinə başlanıb və ilkin kontraktlar imzalanıb. Əlbəttə ki, bizim şirkətlərlə bərabər, türk qardaşlarımız da layihələrdə yer alıblar. Türk şirkətləri artıq önəmli infrastruktur layihələrinin icra edilməsinə başlayıblar", - deyə Əli Əsədov vurğulayıb.

Baş nazir deyib: "Prezident İlham Əliyev bölgədə yeni əməkdaşlıq platforması yaratmaq barədə təşəbbüslə çıxış edib. Bu çoxtərəfli platforma böyük perspektivlər vəd edir və bütün bölgə ölkələri üçün faydalı olacaq. Əminəm ki, iclasın nəticələri ikitərəfli münasibətlərimizin genişlənməsinə təkan verəcək və əməkdaşlığımız üçün yeni imkanlar açacaq".

# Azərbaycanın Baş naziri Əli Əsədov Ankarada TANAP-ın ofisində olub





**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti fevralın 19-da Trans-Anadolu qaz kəməri - TANAP-ın Ankaradakı ofisində olub.**

AZƏRTAC xəbər verir ki, TANAP-ın Baş direktoru Saltuk Düzyol layihənin fəaliyyəti barədə təqdimatla çıxış edib. Baş nazir Əli Əsədov layihənin Azərbaycan və Türkiyə prezidentlərinin iradəsinin nəticəsində başa gəldiyini söyləyib, bunun hər iki ölkə üçün əhəmiyyətini vurğulayıb.

## 1988-ci il fevralın 22-də Qarabağ müharibəsi başladı



# İLHAM ƏLİYEV MÖCÜZƏSİ

## Növbəti möcüzə isə Qarabağın cənnətə çevrilməsi olacaq




*Əvvəli 1-ci səh.*

Bunun cavabı isə çox sadə və aydındır:

*Çünki xalq həqiqi rəhbərindən ayrı düşmüşdü;*

*Çünki həmin illərdə ölkəyə maymaqlar, qorxaqlar, qətiyyətsizlər və səriştəsizlər - bir sözlə şəxsi maraqlarını ümumi mənafedən üstün tutanlar başçılıq edirdilər!*

Nəticə fəlakətli oldu: 20 min şəhid verilməklə 20 faiz ərazi itirildi, üstəlik otuz il ərzində bir milyondan çox qaçqın və məcburi köçkün zillət çəkdi!

**Biz millət kimi gözükölgəli, dili qısa olduq!**

**Bizi torpağını qoruya bilməyən, qorxaq xalq kimi tanıdılar!**

Heç kim həqiqəti öyrənmək, həqiqəti dilinə gətirmək, haqqı-ədaləti müdafiə etmək fikrinə belə düşmədi!

Adımızı "vəhşi", "qaniçən" qoydular!

Qəddar düşmənimizə isə "məzlum", "zavallı millət", "qədim xalq" yarlığı bağladılar!

Yanan da biz, yaman da biz olduq!

Ümidimizi ATƏT-in Minsk qrupuna bağladıq...

Gücümüzü ikili standartlarla mübarizəyə yönəltdik...

**Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıdanda sanki üstümüzə gün doğdu.**

**Hər şey dəyişdi, ümidimiz yenidən cücərməyə başladı.**

Heyhat, ömür vəfa etmədi, Ümummilli Liderimiz bizi siyasi varisinə əmanət edərək haqq dünyasına qovuşdu!

*Xoşbəxtlikdən qoyub getdiyi siyasi kurs davamlı və uğurlu oldu!*

*İlham Əliyev nəinki xalqın etimadını doğrultdu, faktiki olaraq dünya səviyyəli liderə çevrildi, xalqımızın tarixinə adını qızıl hərflərlə yazdıraraq itirilmiş torpaqları qaytaran qalib Sərkərdəyə, Dağlıq Qarabağ problemini həmişəlik çözən dövlət başçısına, əslində möcüzə yaradan rəhbərə çevrildi!*

❖ ❖ ❖

**Prezident İlham Əliyev bu möcüzəni bir gündə, bir anda yaratmayıb!**

**Ona addım-addım, yavaş-yavaş yaxınlaşıb.**

*Saysız-hesabsız problemləri həll etməklə, çətinlikləri aradan qaldırmaqla, çoxlarına xoş gəlməyən müstəqil xarici siyasət yürüdərək Azərbaycanın maraqlarını daim yüksəkdə tutmaqla, bir-birilə bağlı vəzifələri əlaqəli şəkildə həyata keçirməklə, böyük iradə, əzm, qətiyyət və fədakarlıq nümayiş etdirməklə məqsədə çatıb!*

Müdrik dövlət xadimi İlham Əliyev bütün işləri sonadək "qapalı" apardı, düşməni və onun havadarlarını ayıq salmadı, son ana qədər hazırlıqlarını və etmək istədiklərini büruzə vermədi.

**Nəyi, nə vaxt və necə etməyi hamıdan daha yaxşı bilməklə şanlı qələbəni təmin etdi!**

❖ ❖ ❖

Müzəffər Ali Baş Komandan İlham Əliyevin möcüzəsi bir neçə tərkib hissədən ibarətdir. Qısa şəkildə nəzərdən keçirək.

**Ən əvvəl, cənab İlham Əliyev tarixinin ən güclü Azərbaycanını yaratdı!**

*Prezident İlham Əliyevin rəhbərliyi dövründə ümumi daxili məhsul istehsalının artımı sahəsində Azərbaycan daim lider dövlətlər sırasında olub!*

Xəzərin karbohidrogen ehtiyatları qeyri-ənənəvi marşrutlarla dünya bazarına çıxarılıb, ölkəmiz Avropanı enerji daşıyıcıları ilə ən etibarlı şəkildə təmin edən dövlət imicini qazanıb, tərəfdaşlarına, qonşu dövlətlərə fayda gətirən transmilli layihələri uğurla, öz gücü hesabına gerçəkləşdirib, logistika mərkəzinə, Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişdiyi məkana çevrilib, qeyri-neft sektorunun, sahibkarlığın inkişafında diqqətəlayiq nailiyyətlərə imza atıb, iqtisadi imkanlarını siyasi nüfuzuna çevirməyi bacarıb.

*İkinci,* Azərbaycan beynəlxalq layihələrə həyat vəsiqəsi verəndə əməkdaşlıq etdiyi dövlətlərlə dostluq əlaqələrini yarada, mövcud əlaqələri və münasibətləri daha da möhkəmləndirə bilib. Haqq işi uğrunda mübarizə aparanda, ordu quruculuğunda, hərbi əməliyyatların gedişində bu əlaqə və münasibətlər ona kömək etdi. Ölkəmiz Türkiyə, İsrail, Rusiya, Ukrayna kimi dövlətlərdən müasir silahlar alaraq öz arsenalını möhkəmləndirdi. Hətta dostlarımızın bir qismi bizə satdıqları silahlardan düşmən ölkəyə vermədi.

*Üçüncü,* dövlət başçısı cənab İlham Əliyev torpaqların hərbi yolla azad edilməsi variantına hazırlığı təkcə ordunun gücləndirilməsi yolu ilə məhdudlaşdırmadı. Diplomatiya sahəsində də ardıcıl və məqsədyönlü addımlar atıldı.

Prezidentimizin təşəbbüsü ilə hücum diplomatiyasına start verildi, dünya ölkələrində diaspor fəaliyyəti gücləndirildi, Azərbaycan - Türkiyə diaspor qurumlarının əlbir işi təmin olundu.

Erməni diasporunun geniş əl-qol açmasına yol verilmədi.

*Dördüncü,* beynəlxalq qurum və təşkilatlarla aparılan iş əsaslı şəkildə gücləndirildi. Bu sahədə ən ağır yükü dövlət başçısı öz üzərinə götürdü. BMT Təhlükəsizlik Şurasının iclaslarına, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına, Qoşulmama Hərəkatına sədrliyi dövründə səlahiyyətlərindən istifadə edən cənab İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı problemləri diqqət mərkəzinə gətirərək əsl həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına, Azərbaycana haqq işində dəstək verənlərin sayının artırılmasına nail olmuşdur. Həmçinin yaranan bütün imkanlardan, o cümlədən "Valday" Beynəlxalq Diskussiya Klubu və Münxen Təhlükəsizlik Konfransındakı çıxışlarından bacarıqla istifadə edərək Ermənistanın işğalçı siyasətini, sülh danışıqlarından məqsədli şəkildə yayınmasını ifşa etmişdir.

*Beşinci,* bu möcüzənin yaranmasında qardaş Türkiyə dövlətinin yaxından dəstəyinin xüsusi əhəmiyyəti olmuşdur. Məhz cənab İlham Əliyevin səmimi, fədakar zəhməti sayəsində canbir, qanbir, dil və din bir Türkiyə ilə Azərbaycanın sarsılmaz dostluğu özünün ən yüksək, sıx qardaşlıq səviyyəsinə yüksəlmişdir. Bircə faktı yada salırıq: 1992-ci ildə Kəlbəcərin işğalı zamanı ozamankı prezident Ə. Elçibəy insanların mühasirədən çıxarılması üçün Türkiyədən bir mülki vertolyot belə ala bilməmişdi (buna görə türk qardaşlarımızdan incimirik), NATO üzvü olan Türkiyə bu addımı ata bilməmişdi. Bugünkü Ərdoğan Türkiyəsi isə müasir dünyada öz sözü, öz yeri olan, maraqlarını təmin etmək imkanına malik qüdrətli dövlətə çevrilmişdir. Qardaş Türkiyə bu savaşda daima özü, sözü, silahı, imkanları ilə yanımızda durdu, bütün səviyyələrdə Azərbaycanın dəstəkləyicisi olduqlarını birmənalı şəkildə bəyan etdi!

*Altıncı,* Prezident İlham Əliyev yeni vətənpərvər gənclər nəslinin yetişməsinə nail oldu. Və həmin gənclər könüllü olaraq Azərbaycan Ordusuna yazılmaqla müharibənin gedişində öz sözlərini dedilər. Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev həmin gəncləri şəxsi nümunəsi əsasında, idman meydanlarında, təhsil ocaqlarında yetişdirmişdir. Müxtəlif idman yarışlarında qalib gələrək, dövlət bayrağını qaldıraraq himnini səsləndirən, mükəmməl təhsil alaraq quruculuq işlərinə qoşulan müstəqil dövlətimizin gənc vətəndaşları düşmən işğalı ilə heç cürə barışmırdılar və Ali Baş Komandanın "irəli" əmri ilə dərhal silaha sarıldılar, bu dəfə işğaldan azad edilən ərazilərdə üçrəngli bayrağımızı ucaltdılar.

*Yeddinci,* yeni zabitlər heyəti və xüsusi hazırlıq görmüş döyüşçülərin yetişdirilməsi də təmin olundu. Onlarla daim təlim keçirildi, yerli şəraitə uyğun əməliyyatlara hazırlıqlar aparıldı. Məhz bu uzaqgörənlik qala şəhəri olan Şuşanın yüngül silahlar və əlbəyaxa döyüşlər yolu ilə alınmasında təsdiqini tapdı!

*Səkkizinci,* müharibənin ilk günlərindən orduda qeyri-adi ruh yüksəkliyi müşahidə olundu. Azərbaycanın əsgər və zabitləri yüksək peşəkarlıqla, qəhrəmanlıqla çarpışır, düşmənə göz açmağa aman vermir, hətta yaralanan belə döyüş meydanını tərk etmir, digərləri yaralı əsgər yoldaşını tək qoymayaraq özü ilə aparırdı. 44 günlük müharibə dövründə bir nəfər belə fərarilik etmədi! Halbuki düşmən ordusunda öz etiraflarına görə, fərarilərin sayı on mini keçmişdi və geri qaçanların qabağını almaq üçün özləri güllələyirdilər.

*Doqquzuncu,* Azərbaycan Vətən müharibəsinə yeni taktika və strategiya ilə gəlmişdi. Bunu bütün dünya gördü, bildi, təsdiq etdi. Nəinki təsdiqlədi, hətta yeni müharibə nümunəsi ortaya qoyan Azərbaycanın təcrübəsindən nəticə çıxararaq öz ordularında zəruri dəyişikliklərin aparılmasının və bu təcrübədən yararlanmanın vacibliyini söylədilər. Ermənistan isə özünün olmayan qalibiyyətinə güvənərək XX əsrin ordusu və silahları ilə müharibəyə başlamışdı. Nəticədə çox qısa zaman ərzində dəmir yumruğun zərbəsindən sarsıldı, diz çökərək aman dilədi!

*Onuncu,* Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqının milli birliyini də təmin etmişdi. Müharibə başlayan kimi bir-ikisi istisna olmaqla, ölkədəki bütün siyasi partiyalar və qurumlar torpaqların işğaldan azad olunması uğrunda gedən savaşda dövlət başçısını tam dəstəklədikləri barədə rəsmi bəyanat yaydılar. Bu da Azərbaycanın müstəqillik tarixində bir ilk oldu, düşmənə və onun havadarlarına qarşı mübarizədə mühüm dəstəyə çevrildi.

*On birinci,* müasir müharibələrin hibrid müharibəsi olduğunu gözəl bilən Ali Baş Komandan İlham Əliyev informasiya müharibəsinə də irəlicədən hazırlaşmışdı. Elektron resurslarında, xüsusən sosial şəbəkələrdə hərbi əməliyyatlar barədə, habelə hərbi sirr ola biləcək informasiyaların yayılmasının qarşısının alınması üçün qanun əsasında bütün tədbirlər görülmüşdü. Müharibə dövründə dünya KİV-inə və informasiya agentliklərinə otuzdan çox müsahibə verən cənab İlham Əliyev bu sahədə də əsas ağırlığı öz çiyinlərinə götürdü, ölkəmizə qarşı atılan böhtanlara tutarlı cavab verdi, erməni faşizminin iç üzünü açıb göstərdi, qərəzli jurnalistlərə isə jurnalistika dərsi keçdi!

*On ikinci,* şübhəsiz ən böyük möcüzədən biri son üç yüz il ərzində Azərbaycanın itirdiyi torpaqları geri qaytarması və iki əsr davam edən, zaman-zaman ölkəmizdən torpaq qoparılması ilə nəticələnən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulmasıdır.

**Müzəffər Ali Baş Komandan İlham Əliyev düşmənin başını dəmir yumruğu ilə elə əzdi ki, o, bir daha özünə gələrək qüdrətli Azərbaycandan ərazi qoparmaq iqtidarında olmayacaqdır!**

❖ ❖ ❖

**Qarabağın 44 gün ərzində işğaldan azad edilməsi möcüzəsini yaradan Prezident İlham Əliyev bu zəfəri quruculuq sahəsində davam etdirməkdədir.**

**Eyni zamanda bir çox mühüm istiqamətlərdə dövlət başçısı yorulmadan çalışır.**

**Bu işlər cənab İlham Əliyevin xalqımıza verdiyi sözün - Qarabağın yenidən dirçəldilərək cənnətə çevrilməsinə xidmət göstərir!**

ONLAR HANSILARDIR:

- Bütün dövlət sərhədlərinə sahib çıxan ölkəmiz hazırda həmin sərhədlərin delimitasiya və demarkasiyasını başa çatdırmaqdadır.

Bu prosesdə ermənilərin uzun illər boyu bizdən oğurladıqları ərazilər də müəyyənləşdirilərək geri qaytarılır, sərhədlərin qorunması Azərbaycan sərhədçilərinə verilir.

- Murdar düşmənin özündən sonra qoyub getdiyi "ölüm tələləri" aşkarlanaraq ləğv edilir.

Minalardan təmizlənmə prosesində türk hərbçiləri və rusiyalı sülhməramlıları da yaxından iştirak edirlər.

- İşğal və müharibə dövründə ölkəmizə dəyən ziyan, habelə xarici şirkətlərin ölkəmizdə apardıqları talançılıq işləri müəyyənləşdirilir, səlahiyyətli və təcrübəli beynəlxalq qurumlar tərəfindən sənədləşdirilir.

Azərbaycan dövləti həmin sənədlər əsasında Ermənistanı və digər şirkətləri beynəlxalq məhkəməyə verərək vurulan maddi ziyanı kompensasiya etdirəcəkdir.

- Dövlət başçısı cənab İlham Əliyev müntəzəm surətdə işğaldan azad olunan bölgələrə gedir, görülən işlərlə tanış olur, yeni layihələrin gerçəkləşdirilməsi üçün tapşırıq və göstərişlərini verir, təməlqoyma mərasimi keçirir, dirçəliş proqramının icrasının sürətləndirilməsinə çalışır.

*Görülən işlərin sayı və çeşidi isə həddindən çoxdur:*

- ilk növbədə yeni avtomobil yolları çəkilməli, dəmir yolları salınmalı, beynəlxalq aeroport tikilməlidir;
- əhalinin geri qayıtması üçün digər zəruri infrastrukturlar - elektrik enerjisi, içməli su, kanalizasiya xətti çəkilməli, təbii qaz verilişi təmin edilməlidir;
- ən vacib məsələlərdən biri investisiya cəlbi, bu hesaba müxtəlif layihələrin reallaşdırılmasıdır;
- geri qayıdan əhali üçün yaşayış məskənlərinin salınması, inzibati binaların inşası, yeni iş yerlərinin yaradılması, ilk növbədə, görülən işlər sırasındadır;
- kənd təsərrüfatının, sahibkarlığın, turizmin inkişafı da Qarabağın potensialını üzə çıxaracaq sahələrdir.

*Qalib dövlət başçısı İlham Əliyev Şuşanı mədəniyyət paytaxtı elan edib. Bu məqsədlə görüləcək işlərə artıq start verilib.*

*Mədəni-tarixi abidələrin, dini məbədlərin, həm də bütün dini məbədlərin bərpası və yenidən qurulması gündəlikdəki məsələlərdəndir.*

**Bütövlükdə Prezidentimiz yaxın gələcəkdə Qarabağı cənnətə çevirməyi planlaşdırır!**

**Prezidentimizə inanırıq: sözünün sahibi olan dövlət rəhbəri kimi!**

**Həm də daim düşünülmüş siyasət yeridən, hesablanmış addımlar atan, xalqın maraqlarını həmişə qoruyan və üstün tutan vətənpərvər dövlət başçısı kimi!**

**Eyni zamanda əminik ki, cənab İlham Əliyev dediklərini gözləniləndən də tez başa gətirəcəkdir!**

**Axı İlham Əliyev möcüzə yaratmağı bacarır!**

Budur, dünyanı çıxılmaz duruma salan, bütün sahələrdə tənəzzül yaradan, insanları fəaliyyətdən kənarda saxlayan COVID-19-un uğursuz ilə çevirdiyi 2021-ci il İlham Əliyevin qələbəsi hesabına Azərbaycan üçün tarixi zəfər ili oldu!

Həm də təkcə tarixi zəfər ili yox!

*"Gallup International"ın "Xoşbəxtlik İndeksi" beynəlxalq sorğusunun nəticələrinə görə, Azərbaycan 76 faiz xoşbəxtlik indeksi ilə ən xoşbəxt ölkələrin ilk beşliyinə, Ermənistan isə 12 indekslə ən bədbəxt ölkələr siyahısında yer alıb!*

**Hamı üçün uğursuz ilin Azərbaycan üçün ən xoşbəxt ilə çevrilməsi bir möcüzə deyilmi?!**

**Bunun da müəllifi Azərbaycan xalqının sevimlisi İlham Əliyevdir!**

**Bəxtiyar SADIQOV**

# Xarici işlər naziri Ceyhun Bayramov Aİ-yə üzv ölkələrin Azərbaycandakı diplomatik nümayəndəliklərinin rəhbərləri ilə görüşüb





Fevralın 19-da xarici işlər naziri Ceyhun Bayramov Avropa İttifaqına (Aİ) üzv ölkələrin Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklərinin rəhbərləri ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramov hazırda bölgədə mövcud olan vəziyyət, xüsusilə də Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladığı 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər barədə məlumat verib. Bölgədə yaranmış yeni təhlükəsizlik formatı, eləcə də yeni əməkdaşlıq imkanlarından bəhs olunub. Nazir Ceyhun Bayramov 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra Ermənistan tərəfindən bu razılaşmaya tamamilə zidd olaraq, işğaldan azad edilmiş ərazilərə terrorçu diversant qrupun göndərildiyini Aİ səfirlərinin diqqətinə çatdırıb və cinayət tərkibli bu əməllərin yolverilməzliyini vurğulayıb.

Nazir Ceyhun Bayramov, eyni zamanda, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə töhfəsi, artıq tam istismara verilən nəhəng "Cənub qaz dəhlizi" layihəsi və bu layihənin Avropada coğrafiyasının genişləndirilməsi imkanları, habelə Azərbaycan-Aİ ikitərəfli münasibətləri və bu əlaqələrin hüquqi əsasını təşkil edəcək yeni saziş üzrə danışıqlar haqqında ətraflı məlumat verib.

Aİ-nin Azərbaycandakı nümayəndəsi səfir Kestutis Yankauskas ətraflı məlumata görə təşəkkürünü bildirib, bu formatda dialoqun gələcəkdə də davam etdirilməsinin faydalı olacağını bildirib. O, ikitərəfli münasibətlər, o cümlədən yeni sazişin imzalanmasının əhəmiyyəti, enerji sahəsində tərəfdaşlıq və yeni imkanların nəzərdən keçirilməsi, Şərq Tərəfdaşlığı çərçivəsində əməkdaşlıq məsələlərini qeyd edib. Avropa İttifaqının münaqişədən əziyyət çəkən insanlara humanitar yardımına istinad edən səfir Aİ-nin münaqişə sonrası prosesdə oynaya biləcəyi rol barədə ətraflı müzakirələrin aparılmasının önəmini vurğulayıb.

Sonra nazir Ceyhun Bayramov Aİ səfirlərinin çoxsaylı suallarını cavablandırıb.

# Milli Məclisin Gənclər və idman komitəsində növbəti görüş

Fevralın 19-da Milli Məclisin Gənclər və idman komitəsində şəhid ailəsi, Vətən müharibəsinin iştirakçıları və idmançılarla xüsusi karantin rejiminin tələblərinə uyğun olaraq növbəti görüş keçirilib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Azərbaycan Prezidentinin rəhbərliyi ilə Ordumuzun döyüş meydanında qazandığı tarixi Qələbədən, habelə diplomatik müstəvidə görülən işlərin uğurlu nəticəsindən danışıb. Bildirib ki, şəhid ailələri və qazilərimiz hər zaman dövlətin xüsusi qayğısı ilə əhatə olunub və onları narahat edən məsələlərin dərhal həll edilməsi diqqətdə saxlanılır.

Söhbət zamanı Vətən müharibəsindən sonra da gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsinin zəruriliyi, idmanın gənclərin və yeniyetmələrin həyat tərzinə çevrilməsi və bununla da gənclərin zərərli vərdişlərdən uzaq olması, habelə ölkəmizi xarici ölkələrdə təmsil edən gənclərimizin daim milli-mənəvi dəyərlərimizə bağlı olmalarının vacibliyi barədə müzakirələr aparılıb.

Sonda Vətən müharibəsi qazisi Elvin Cəfərova və görüşdə iştirak edənlərin bir qisminə Milli Məclisin Gənclər və idman komitəsinin Fəxri fərmanı təqdim olunub.

# Milli Məclisin İndoneziya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu indoneziyalı həmkarlarına təşəkkür məktubu ünvanlayıb

Milli Məclisin Azərbaycan-İndoneziya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Bəxtiyar Əliyev İndoneziya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Muhammad İqbala və qrupun üzvlərinə təşəkkür məktubu ünvanlayıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, məktubda Xocalı soyqırımının 29-cu ildönümü ilə bağlı İndoneziya Respublikasının Nümayəndələr Palatasında qəbul edilmiş, tarixi faktlara söykənən və BMT TŞ-nin qətnamələrinə istinad edən siyasi bəyanat yüksək qiymətləndirilib, İndoneziya parlamenti tərəfindən verilən bu qardaş dəstəyinə görə dostluq qrupu adından həmkarlarına minnətdarlıq ifadə olunub.

Məktubda həmçinin qeyd edilib ki, Azərbaycan Respublikası dost İndoneziya Respublikası ilə ikitərəfli əməkdaşlığın hərtərəfli inkişaf etdirilməsinə böyük önəm verir. Məktubda birgə səylər nəticəsində parlamentlərarası əməkdaşlığımızın bundan sonra da dərinləşəcəyinə və bunun xalqlarımız arasında mövcud əlaqələrin daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminlik ifadə olunub.

Xatırladaq ki, 2021-ci il 10 fevral tarixində İndoneziya Respublikasının Nümayəndələr Palatasının İndoneziya-Azərbaycan parlament dostluq qrupu tərəfindən Xocalı soyqırımının 29-cu ildönümü ilə əlaqədar bəyanat qəbul edilib. Bəyanatda ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi insanlığa sığmayan cinayətlər qınanılıb və Ermənistanın BMT TŞ-nin qətnamələrinə məhəl qoymaması pislənib.

# Mərkəzçi Demokrat İnternasionalının qəbul etdiyi qətnamədə noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın əhəmiyyəti qeyd olunub

Mərkəzçi Demokrat İnternasionalının İcraiyyə Komitəsinin videokonfrans formatında iclası keçirilib. İclasda Azərbaycan, Rusiya və Ermənistan liderləri tərəfindən imzalanan üçtərəfli Bəyanata dair qətnamə layihəsi müzakirə olunaraq qəbul edilib.

Bu barədə AZƏRTAC-a Yeni Azərbaycan Partiyasından məlumat verilib.

Qətnamədə 1980-ci illərin sonlarından başlayan və 30 ildən çox davam edən Dağlıq Qarabağ münaqişəsinin bölgədə iqtisadi və humanitar fəlakətə, minlərlə insanın ölümünə, yüz minlərlə insanın məcburi köçkün vəziyyətinə düşməsinə səbəb olduğu vurğulanır.

2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın əhəmiyyətinin xüsusi qeyd olunduğu qətnamədə Ermənistan və Azərbaycana həmin sənədə və əvvəlki atəşkəs razılaşmaları öhdəliklərinə uyğun olaraq Dağlıq Qarabağ və ətraf rayonlarda öhdəliklərinin tam şəkildə icrasına davam etmək çağırışı edilir. Tərəflərin hərbi əsirlərin mübadiləsi və Birinci Qarabağ müharibəsində itkin düşənlər də daxil olmaqla münaqişədə həlak olanların qalıqlarının qaytarılması ilə bağlı beynəlxalq hüququn tələblərinə əməl etmək öhdəliyi də sənəddə qeyd olunur. Həmçinin hərbi cinayətlərə dair bütün iddiaların lazımi qaydada araşdırılmasına, günahkarların məsuliyyətə cəlb edilməsinə və cinayətlərinə görə cavab vermələrinin təmin edilməsinə çağırış edilir.

Sənədə əsasən, MDİ qadağan edilmiş silahların istifadəsini qəbuledilməz hesab edir və mülki əhaliyə qarşı hücumlarda, hətta təmas xəttindən uzaqda qeydə alınmış kasetli bomba və digər kütləvi qırğın sursatının istifadəsini pisləyir.

Uzunmüddətli münaqişənin bölgədəki mülki infrastrukturlara, mədəniyyət obyektlərinə və ətraf mühitə vurduğu ziyanı qiymətləndirmək üçün Avropa Komissiyasına, Avropa Parlamentinə və UNESCO-ya faktaraşdırıcı missiyası göndərmək çağırışı edilir. Qurum həmçinin xarici investorları və humanitar təşkilatları Dağlıq Qarabağ və ətraf ərazilərdə minalar və partlamamış hərbi sursatlardan təmizləmə, bərpa və humanitar fəaliyyətlərdə iştiraka təşviq edir. Eləcə də beynəlxalq ictimaiyyəti atəşkəs razılaşmasının tam icrasına, bölgədə sülh və etimadın qurulmasına, Azərbaycan və Ermənistan xalqları arasında barışığa dəstək olmağa çağırır.

Sənəddə tərəfləri bundan sonra bərabər qonşuluq prinsipləri əsasında beynəlxalq hüquqa uyğun olaraq bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmətə əsaslanan münasibətlər qurmağa çağırış edilir.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyasının müşahidəçi üzv olduğu MDİ hazırda Avropa, Latın Amerikası, Afrika və Asiya-Sakit okean regionlarından 94 siyasi partiyanı özündə birləşdirir.

# "Siyasi dialoqun Azərbaycan modeli" adlı silsilə görüşlər davam edir

Siyasi dialoq mühitinin ölkəmizdə dəstəklənməsi, eləcə də dialoq məfhumunun təşviqi məqsədilə Azərbaycanda fərqli layihələr davamlı olaraq reallaşmaqdadır. Görülən işlər sayəsində "siyasi dialoq" anlayışı öz aktuallığını qoruyaraq, siyasi təcrübənin ayrılmaz amilinə çevrilib.

AZƏRTAC xəbər verir ki, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin ölkədə tanınmış politoloq və müvafiq sahədə ixtisaslaşmış QHT rəhbərləri ilə fevralın 19-da keçirilmiş "Siyasi dialoqun Azərbaycan modeli" adlı görüşü məhz mövcud istiqamətdə Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan siyasətin davamı kimi dəyərləndirilməlidir.

Ölkəmizdə reallaşan islahatlar siyasi münasibətlər sistemini də əhatə edir. Dayanıqlı inkişaf, sabitlik, milli həmrəylik mühiti, peşəkar münasibətlərin təşviqi və demokratik ənənələrin formalaşması kimi vəzifələri özündə ehtiva edən islahatlar qaçılmazdır və siyasi münasibətlər sisteminə də sirayət edir. Dövlət başçısının "Hesab edirəm ki, indiki genişmiqyaslı islahatlar dövründə siyasi islahatlar mütləq aparılmalıdır. Siyasi islahatlar partiyalararası geniş dialoq aparılmadan həyata keçirilə bilməz. Bir partiya - hakim partiya təkbaşına siyasi dialoq apara bilməz. Çünki dialoq üçün tərəf-müqabillər lazımdır və ilkin təəssürat müsbətdir" - fikri ölkəmizdə siyasi dialoqun inkişafına ayrılan yüksək diqqətin sübutudur. Bu cür yanaşma və nümayiş olunan siyasi iradə sayəsində "dialoq məfhumu" Azərbaycanda siyasi dəyər statusuna qədər yüksəlmiş olur.

"Siyasi dialoqun Azərbaycan modeli" adlı silsilə tədbirlər çərçivəsində təşkil olunmuş növbəti görüşdə tanınmış politoloq və siyasi şərhçilərlə yanaşı, ölkənin müvafiq sahədə ixtisaslaşmış qabaqcıl QHT rəhbərləri də iştirak ediblər. Tədbiri giriş sözü ilə açan şöbə müdiri Ədalət Vəliyev ölkə rəhbərliyi adından iştirakçıları salamlayaraq, şöbənin əsas fəaliyyət istiqamətləri və prioritetləri, Azərbaycanda aparılan sistemli islahatlar, o cümlədən siyasi partiyaların canlanması və dayanıqlı demokratik ənənələrin formalaşmasına xidmət edən siyasi dialoq məfhumunun təşviqi istiqamətində görülmüş işlər haqqında geniş məlumat verib.

Ölkəmizin artıq gündəlik siyasi təcrübəsinə daxil olmuş iqtidar-müxalifət dialoqunun davamlı şəkildə inkişaf etdiyini qeyd edən administrasiya rəsmisi cəmiyyətin fəal üzvlərinin, həmçinin vətəndaş cəmiyyəti institutlarının bu proseslərdə qabaqcıl mövqe tutmasının əhəmiyyətindən bəhs edib. Qeyd olunub ki, dayanıqlı siyasi dialoq mühitinin qorunması kontekstində isə obyektiv siyasi şərhlərin, həmçinin maarifləndirmə və təbliğat işlərinin aktuallığı xüsusi olaraq artır. Bu mənada mövcud potensialların səfərbər olunması və müvafiq sahələrin mütəxəssisləri ilə birgə müzakirələrin aparılması siyasi zərurətdir.

Öz çıxışını Prezident İlham Əliyevin "Növbəti illərdə siyasi sistemin təkmilləşdirilməsi, müasirləşdirilməsi, Azərbaycanda siyasi münasibətlərin sağlam zəmində qurulması işində önəmli addımlar atılacaqdır" - fikirləri ilə davam etdirən administrasiya rəsmisi siyasi münasibətlərdə dialoq mühitinin dəstəklənməsinin, ilk növbədə, ölkə rəhbərliyinin dövlət quruculuğu məsələlərində demokratik prinsip və ənənələrə sadiq qalmasından xəbər verdiyini bildirib.

Dövlətin və cəmiyyətin inkişafında siyasi dialoqun rolunun təbliği və malik olduğu bütün müsbət təzahür formalarının aşılanması üçün Azərbaycanda tanınmış ictimai xadimlər tərəfindən mövzu ilə bağlı verilən şərhlərdə obyektiv mövqeyin qorunması və dövlətçilik mövqelərdən çıxış etməsinin prinsipial məsələ olduğunu qeyd edən Ədalət Vəliyev bildirib ki, Vətənə sadiqlik və milli maraqlara xidmət bütün vətəndaşlarımızın əsas həyat amalına çevrilməlidir.

Azərbaycanda yaşanan milli birlik və həmrəylik kontekstində 44 gün davam edən Vətən müharibəsində əldə olunan böyük Qələbəni xatırladan administrasiya rəsmisi Prezident İlham Əliyevin bununla bağlı fikrini səsləndirib: "Müharibədən əvvəl artıq ölkəmizdə yeni bir siyasi iqlim yaranmışdı, müsbət iqlim. Çünki bizim hamımızın, bütün vətənpərvər qüvvələrin bir amalı var idi - torpaqlarımızın işğaldan azad edilməsi. Biz, Azərbaycan iqtidarı buna da nail olduq. Bu gün isə bizim qarşımızda bu Qələbəni siyasi yollarla möhkəmləndirmək vəzifəsi durur". Bu mənada siyasi dialoqun, eyni zamanda cəmiyyətin çeviklik və mobillik kimi əvəzolunmaz keyfiyyətlərinin inkişafı prosesinə də təsir etdiyini qeyd edən Ədalət Vəliyev vurğulayıb ki, münasibətlər sisteminin məhz bu tərəfləri Azərbaycanda ən az tədqiq və təhlil olunmuş mövzulardandır.

Daha sonra dialoqun Azərbaycan milli mədəniyyətinə məxsus keyfiyyətlərdən biri olduğunu xatırladan şöbə müdiri hökumət tərəfindən mövcud istiqamətdə atılan qlobal təşəbbüslərdən danışıb. Konteksti inkişaf etdirərək Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva tərəfindən mövcud istiqamətdə görülmüş işlər haqqında məlumatları tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirdə iştirak edən Milli Məclisin deputatları Elşad Mirbəşiroğlu "Azərbaycanda siyasi dialoq mədəniyyəti yeni inkişaf mərhələsində", Musa Qasımlı "Diskussiya mədəniyyəti: keçilən yol, mövcud vəziyyət və perspektivlər", Hikmət Babaoğlu "İctimai siyasi münasibətlər sistemi tariximizdə yeni plüralist əməkdaşlıq mərhələsi", Cavanşir Feyziyev "Siyasi dialoqun zərurəti: Siyasi dialoq - milli təhlükəsizliyin mühüm elementi", həmçinin tanınmış politoloqlar Eldar Namazov "Dəyişən dünyada milli birliyin və ölkədaxili dialoqun vacibliyi", Fariz İsmayılzadə "Milli Həmrəylik və dialoq üçün təhsil platforması", Tofiq Abbasov "Qarşılıqlı anlaşmadan təkamülə doğru", Rufiz Qonaqov "Siyasi dialoq - həmrəylik və Vətən müharibəsi", Rauf Arifoğlu "Siyasi dialoq düşmənin informasiya təxribatlarına qarşı milli dirənişin əsası kimi" və Elşad Eyvazlı "Siyasi dialoqda medianın rolu" mövzuları üzrə məruzələrlə çıxış ediblər.

Tədbirdə yekun sözü ilə çıxış edən administrasiya rəsmisi Prezident İlham Əliyevin "Bu gün isə bizim qarşımızda bu Qələbəni siyasi yollarla möhkəmləndirmək, erməni faşizminin baş qaldırmasına yol verməmək, beynəlxalq müstəvidə keçmiş münaqişə ilə və indiki reallıqlarla bağlı, o cümlədən dağıdılmış ərazilər haqqında məlumat çatdırmaq vəzifəsi durur. Bizim partiyalarımızın bəziləri beynəlxalq partiya qurumlarına üzvdürlər. Bu məlumat o qurumlar çərçivəsində verilməlidir. Yəni bu gələcək fəaliyyət üçün əsas istiqamət olmalıdır. Əlbəttə ki, ölkə daxilində demokratikləşmə proseslərinə müsbət təsir etmək, partiyalararası dialoqu möhkəmləndirmək, çatışmazlıqlar haqqında məsələ qaldırmaq və normal, sağlam rəqabət aparmaq - biz bunu istəyirik" - fikirlərini səsləndirərək bildirib ki, dialoqun təzahür formalarından biri olan əməkdaşlığın nəticəsində ölkədə aparılan islahatların maksimal effektivliyi təmin olunacaq.

Dialoq ənənələri ilə zəngin olan Azərbaycanda milli və siyasi həmrəyliyin inkişafı üçün bütün amillərin mövcudluğunu qeyd edən tədbir iştirakçıları mövcud istiqamətdə əməkdaşlığa hazır olduqlarını və öz fəaliyyətlərində mövzuya xüsusi diqqət ayıracaqlarını bildiriblər.

# Estoniya parlamentinin Azərbaycan ilə dostluq qrupu Xocalı soyqırımının 29-cu ildönümünə dair bəyanat qəbul edib

**Estoniya parlamentinin - Riyqikoqunun Azərbaycan ilə parlamentlərarası əlaqələr üzrə dostluq qrupu Xocalı soyqırımının 29-cu ildönümü ilə bağlı bəyanat qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qrupun üzvləri Azərbaycan xalqına Xocalı soyqırımının 29-cu ildönümü ilə bağlı dərin hüznlə başsağlığı veriblər. Bəyanatda bildirilir ki, Azərbaycan xalqı Xocalı soyqırımında 600-dən çox günahsız vətəndaşını itirib. Onların arasında çoxsaylı uşaq, qadın və yaşlı insan olub.

"Biz dinc Azərbaycan xalqına qarşı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilmiş insanlığa zidd bu vəhşiliyin günahkarlarını qətiyyətlə pisləyirik. Bu vəhşilik aktının günahkarları məsuliyyətə cəlb edilməlidir. Azərbaycan və Ermənistan arasında Qarabağ bölgəsindəki bütün hərbi fəaliyyətlərin dayandırılmasını alqışlayırıq. Azərbaycan Respublikasının davamlı sülh, inteqrasiya və azad edilmiş ərazilərin inkişafı istiqamətindəki səylərinə dəstəyimizi bildiririk", - deyə bəyanatda vurğulanır.

# Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin yaradılmasının 16-cı ildönümü münasibətilə tədbir keçirilib

Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsinin yaradılmasının 16-cı ildönümü münasibətilə fevralın 18-də tədbir keçirilib.



DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Dövlət himninin səslənməsi ilə başlayan təntənəli tədbirdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin 2005-ci il 18 fevral tarixli Sərəncamına əsasən, DSX-nin Sahil Mühafizəsinin yaradılması ilə ölkəmizin dəniz sərhədlərinin mühafizəsinin keyfiyyətcə yeni mərhələyə yüksəlməsi, sərhəd sularında dövlət maraqlarımızın qorunması imkanlarının genişlənməsi, dəniz sərhədlərinin mühafizəsi məsələlərinə daim ali diqqətin göstərilməsi sayəsində yüksək nəticələrin əldə olunması qeyd edilib.



Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi üçün əlamətdar olan bu günün Vətən müharibəsində tarixi Qələbənin təntənəsinin yaşandığı dövrə təsadüf etməsi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsinin Azərbaycanın Ermənistan üzərində parlaq Qələbəsi ilə başa çatmasının DSX-nin bütün şəxsi heyəti tərəfindən böyük sevinc və qürur hissləri ilə qarşılandığı vurğulanıb.

Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Dövlət Sərhəd Xidmətinin qarşısına qoyduğu döyüş tapşırıqlarının uğurla icra edilərək Ermənistanla dövlət sərhədinədək böyük bir ərazinin azad edilməsi, Ermənistanla dövlət sərhədində strateji yüksəkliklərin ələ keçirilməsi, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azad olunmasında Azərbaycan sərhədçilərinin göstərdikləri qəhrəmanlıqlar, "Harop" və digər zərbəendirici pilotsuz uçuş aparatlarının, sərhəd aviasiyasının AN-2 təyyarələrinin Azərbaycan sərhədçiləri tərəfindən peşəkarlıqla tətbiqi nəticəsində düşmənə ciddi döyüş itkilərinin vurulması böyük qürur hissi ilə qeyd olunub, işğaldan azad edilmiş dövlət sərhədlərimizin müdafiəsi və mühafizəsi üzrə zəruri infrastrukturun yaradılması istiqamətində işlərin uğurla davam etdirilməsi bildirilib.

DSX-nin rəisi general-polkovnik Elçin Quliyevin təbriki şəxsi heyətə çatdırılıb, Azərbaycan Respublikasının dövlət sərhədlərinin toxunulmazlığının keşiyində böyük şərəf hissi ilə duran dənizçi sərhədçilərin bundan sonra da xidməti tapşırıqları ən yüksək səviyyədə icra edəcəklərinə əminlik ifadə olunub.

Tədbirdə xidməti-döyüş fəaliyyətində yüksək nəticələr əldə etmiş bir qrup hərbi qulluqçu təltifləndirilib.

***"Azərbaycan"***



# Azərbaycanın etibarlı dostu, səmimi müttəfiqi

## Ölkəmizin Pakistanla mühüm tərəfdaşlıq münasibətləri qarşılıqlı etimada və səmərəli əməkdaşlığa əsaslanır

*Əvvəli 1-ci səh.*

İslam faktoru Pakistanda ayrıca statusa malikdir. Tədqiqatçılar islam dinini Pakistan xalqının mədəni identikliyinin başlıca elementi hesab edirlər. İslam dini nəinki Pakistanın Hindistanla münasibətlərinə təsir etmiş, həm də bu ölkənin xarici siyasətinin formalaşmasında aparıcı rol oynamışdır. Hazırda Pakistanın beynəlxalq sistemdəki mövqeyi də bu ideologiya ilə əlaqədardır.

Ümumiyyətlə, çoxsaylı hərbi toqquşmalar və Kəşmir məsələsinin beynəlmiləlləşməsi BMT-nin müzakirə masası üstündə qalmış bir neçə qətnamə (1948, 1949) ilə tarixə çevrilmişdir. Bu qətnamələr Kəşmir əhalisinin azad seçiminə üstünlük versə də, tərəflərin iddiaları problemin həllini daha da çətinləşdirmişdir. Əksər ölkələr Pakistanla Hindistan arasında baş verən bu münaqişəyə öz siyasi kontekstindən yanaşmağa üstünlük verirdilər. Məsələn, SSRİ münaqişənin ilk illərindən Kəşmiri Hindistanın ərazisi hesab edərək onun "işğal" edildiyini bildirir, ABŞ isə əsasən BMT-nin qərarlarını və Pakistanı müdafiə edir. Bu mənada Pakistanın beynəlxalq münasibətləri dünya dövlətlərinin Kəşmir münaqişəsinə münasibəti çərçivəsi ilə müəyyənləşməyə, ölkənin beynəlxalq münasibətlərdə tutduğu mövqeyi isə "düşmənimin dostu mənim dostum ola bilməz" prinsipinə əsaslanır.

Pakistan ilə Hindistan arasında qarşılıqlı etimadın yaradılması istiqamətində işlər davam etdirilir. Belə addımlardan biri kimi 8 aprel 2012-ci ildə Pakistan Prezidenti Asif Əli Zərdarinin Hindistana səfərini göstərmək olar. Buna cavab olaraq Hindistanın xarici işlər naziri S.M.Krişna 7 sentyabr 2012-ci ildə Pakistana səfər etmişdir. Görüş zamanı viza rejiminin sadələşdirilməsi məsələsi əsas mövzulardan biri olmuşdur. 20 oktyabr 2013-cü ildə Pakistanın Baş naziri Nəvaz Şərif ABŞ-ın Kəşmir məsələsində vasitəçi kimi çıxış etməsini təklif etmiş, lakin Hindistan tərəfi sözügedən təklifi qəti şəkildə pisləmişdir.

Qeyd etmək lazımdır ki, Pakistan İslam Respublikası dünyada sülhməramlı hərbi missiyaları həyata keçirən bir ölkə kimi də tanınır. Hazırda Pakistanın sülhməramlı hərbi qüvvələri Avropa, Asiya, Afrika qitələrinin bir sıra ölkələrində BMT tərəfindən müəyyənləşdirilmiş hərbi xidmətlərini layiqincə həyata keçirməkdə davam edirlər. Ümumiyyətlə, dünyadakı sülhməramlı qüvvələrin 13 faizdən çoxu Pakistan İslam Respublikasına aiddir.

Beynəlxalq münasibətlərdə Pakistanın əsas tərəfdaşlıq etdiyi ölkələr ABŞ, Çin, Səudiyyə Ərəbistanı, Türkiyə və Əfqanıstandır. Pakistan İslam Respublikası türkdilli dövlətlərlə yaxın münasibətlər şəraitində fəaliyyətini davam etdirməkdədir. Türkiyə Cümhuriyyəti ilə Pakistan İslam Respublikası arasında əlaqələr demək olar ki, bütün sahələr üzrə hərtərəfli şəkildə genişlənməkdə davam edir. Postsovet ölkələrində isə Pakistan Azərbaycan, Özbəkistan və Türkmənistanla özünün qarşılıqlı münasibətlərini inkişaf etdirərək daha da möhkəmləndirir. Pakistanın Türkiyə Cümhuriyyətinə və yeni qurulmuş türk dövlətlərinə ardıcıl olaraq dəstək verməsi bu Asiya qitəsi ölkəsinin Azərbaycan Respublikası ilə əlaqələrinin ildən-ilə genişləndirilməsində mühüm faktor rolunu oynayır. Pakistan Ermənistanın istiqlaliyyətini rəsmi şəkildə tanımır. Bu ölkənin birmənalı şəkildə bunu Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi ilə izah edir. Pakistan rəsmi dairələri qondarma "erməni soyqırımını" da tanımadığını bildirirlər.

Pakistan İslam Respublikası Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan dövlətlərdən biridir. Belə ki, Pakistan 12 dekabr 1991-ci ildə rəsmi olaraq Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımışdır. Bu böyük Asiya dövləti 9 iyun 1992-ci il tarixində Azərbaycanla diplomatik əlaqələrin yaradılması haqqında qərar qəbul etmiş, 12 mart 1993-cü ildə Bakı şəhərində özünün səfirliyini açmışdır. Lakin Pakistanın Azərbaycanla dostluq və əməkdaşlıq münasibətlərinin tarixi daha erkən dövrlərlə əlaqədardır. Belə ki, Pakistan xalqı XX əsrin əvvəllərində ölkələrində taun xəstəliyi geniş yayıldığı bir dövrdə görkəmli Azərbaycan mesenatı Hacı Zeynalabdin Tağıyevin Avropadan 300 min ampul peyvənd alıb müsəlman qardaşlarına göndərməsini, onlara yardım etməsini heç vaxt unutmamışdır.

Bütövlükdə isə Azərbaycanla Pakistan arasında münasibətlərin yaranması XX əsrin altmışıncı illərindən etibarən daha intensiv xarakter ala bilmişdir. 1962-ci ilin oktyabrında Mirzə Fətəli Axundzadənin anadan olmasının 150 illiyi münasibətilə keçirilən təntənələrdə görkəmli Pakistan yazıçısı, Beynəlxalq Lenin mükafatı laureatı Əhməd Fəna iştirak etmişdir. Elə həmin il SSRİ-yə səfər çərçivəsində Pakistanın Milli Məclisinin sədri Fəzlulla Kadar Çoudrinin rəhbərliyi ilə bir qrup pakistanlı dövlət nümayəndəsi Azərbaycana gəlmiş, xalqımızın həyatı ilə yaxından tanış olmuşdular. 1965-ci ilin aprelində görkəmli Pakistan dramaturqu, rejissoru və kinooperatoru Henri Çayasenin Bakıya gəlişi Azərbaycanın kino ictimaiyyəti tərəfindən böyük hörmət və ehtiramla qarşılanmışdır. Görkəmli ictimai xadim Mirzə Abel Həsən İspahanın həmin dövrdə "Leninqraddan Səmərqəndədək" adlı kitabında Azərbaycan haqqında özünün müsbət təəssüratlarını nəzərə çarpdırması yaddaqalan hadisəyə çevrilmişdir.

Bu zaman Bakıda Pakistan-Azərbaycan münasibətlərini tənzimləyən Sovet-Pakistan Mədəni Əlaqə Cəmiyyətinin şöbəsi təsis edilmişdir. 1967-ci ilin avqustunda Camiruddin Prodxan başda olmaqla, Şərqi Pakistan Qanunvericilik Məclisinin bir qrup nümayəndəsi Bakı və Sumqayıtdakı mədəniyyət ocaqlarının fəaliyyəti ilə də yaxından tanış olmuşlar. Pakistanla mədəni əlaqələrin inkişaf etdirilməsində Azərbaycanın elm, təhsil və sənət adamlarının həmin ölkəyə səfərlərinin təşkili də əhəmiyyətli rol oynamışdır. O illərdə Azərbaycanın tanınmış elm və mədəniyyət xadimləri Aşıq Pənah Pənahov, Azərbaycan Dövlət Universitetinin kafedra müdiri, filologiya elmləri doktoru, professor Fərhad Zeynalov Karaçi şəhərinə səfər etmişlər. Lakin sonrakı illərdə Pakistanla SSRİ arasında yaranan siyasi fikir ayrılığı Azərbaycanla olan əlaqələrinə də xələl gətirmişdir.

Azərbaycan-Pakistan münasibətlərinin yeni bir mərhələsi isə SSRİ-nin dağılması ilə başlayır. Azərbaycanın suverenliyini ilk tanıyan ölkələrdən biri kimi Pakistan 1992-ci ildə ölkəmizlə siyasi, iqtisadi və mədəni əlaqələrin yeni tarixi şəraitə münasib şəkildə yenidən qurulmasına çalışmışdır. Azərbaycanın Qarabağ uğrunda ağır müharibə şəraitində yaşadığı dövrlərdə beynəlxalq münasibətlərdə Pakistan rəsmilərinin dünya dövlətlərini BMT, İKT kimi nüfuzlu təşkilatlarda Ermənistanı təcavüzkar ölkə kimi tanınmasına çağırması böyük əhəmiyyət daşıyırdı. Təsadüfi deyil ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü il 30 aprel tarixində Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal çıxarılmasını tələb edən və bu ölkəni təcavüzkar dövlət kimi tanıyan 822 nömrəli qətnaməsinin qəbul edilməsində Pakistan özünü fəal şəkildə göstərə bilmişdir. Pakistanın həmin iclasa sədrlik etməsi qətnamənin qəbul edilməsində böyük rol oynamışdır.

Dövlət müstəqilliyimizin ilk illərindən Ümummilli Lider Heydər Əliyev Pakistan-Azərbaycan münasibətlərinə böyük önəm verirdi. Görkəmli dövlət xadimi Heydər Əliyev iki ölkə arasında olan münasibətləri dəyərləndirərək bu əlaqələri belə səciyyələndirirdi: "Pakistan ilə Azərbaycan arasında çox yaxşı əlaqələr, dostluq əlaqələri var. Bu əlaqələr keçmiş tarixi ənənələrimizin üzərində qurulub".

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1994-cü ilin dekabrında Kasablankada Pakistanın ovaxtkı Baş naziri, mərhum Bənazir Bhutto ilə görüşündən sonra ölkələrimiz arasındakı ikitərəfli münasibətlər daha yüksək səviyyədə inkişaf etməyə başladı. 1995-ci ilin oktyabrında Pakistan Prezidenti Faruq Əhməd Xan Leqarinin Azərbaycana rəsmi səfəri baş tutdu. Bu zaman tərəflər arasında "Elm, mədəniyyət və humanitar sahələrdə əməkdaşlıq haqqında müqavilə" imzalandı. 1996-cı ildə isə Ulu Öndər Heydər Əliyevin Pakistana səfəri çərçivəsində iki ölkə arasında dostluq və əməkdaşlıq haqqında və "Turizmin inkişafı üzrə Anlaşma-Memorandumu" imzalandı. Bu, pakistanlılarla azərbaycanlıları bir-birinə daha da yaxınlaşdırdı.

Ötən illərdə elm, təhsil sahəsində də ölkələr arasında əməkdaşlıq üçün yeni nailiyyətlər əldə olunmuşdur. Belə ki, Pakistan tərəfi hərbi təhsil, informasiya texnologiyaları və telekommunikasiya sahəsindəki zəngin təcrübəsindən bəhrələnməyi Azərbaycan dövlətinə bəyan etmiş və bu sahədə əməli tədbirlər həyata keçirilmişdir. Azərbaycanın ağır vəziyyətində qardaş müsəlman ölkəsinin xalqımıza göstərdiyi maddi, mənəvi və siyasi dəstəyə görə Ümummilli Lider Heydər Əliyev 1994-cü ildə İKT ölkələrinin Kasablankada keçirilmiş VII Sammitində Pakistan dövlətinə təşəkkürlərini çatdırmışdır. 14 oktyabr 2002-ci ildə İstanbulda İƏT-in üzvü olan ölkələrin VII zirvə görüşündə görkəmli dövlət xadimi Heydər Əliyev Pakistanın Prezidenti Pərviz Müşərrəflə bir daha görüşüb, əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün addımlar atmışdır.

Pakistanla ölkəmiz arasında münasibətlərin intensiv xarakteri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasət xəttində də prioritet istiqamətlərdən biridir. 8-10 iyul 2004-cü ildə Pakistan Prezidenti Pərviz Müşərrəf Bakıya rəsmi səfərə gəlmişdir. Bunun ardınca İlham Əliyev Pakistan İslam Respublikasının Prezidenti Pərviz Müşərrəfin dəvəti ilə 2005-ci ilin aprel ayının 12-də bu ölkədə rəsmi səfərdə olmuşdur. Ekspertlər qeyd edirlər ki, bu səfər iki dost ölkə arasında çoxtərəfli əlaqələrin daha da inkişafı üçün geniş imkanlar açmışdır. Belə ki, səfər zamanı dost ölkələrin dövlət başçılarının görüşündə rabitə və informasiya texnologiyaları, mədəniyyət, maliyyə sektoru, təhsil, nəqliyyat, aviasiya və digər sahələrdə əməkdaşlığın inkişafı üçün imkanların olması qeyd edilmiş, zəruri sənədlər imzalanmışdır. Səfər çərçivəsində Pakistan Müdafiə Nazirliyi nəzdində Hərbi İxraca Yardım Təşkilatının Azərbaycana yardım imkanları müzakirə olunmuşdur. Səfər zamanı İslamabadda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Baş naziri Şövkət Əzizin iştirakı ilə iki ölkə arasında hərbi əməkdaşlıq barədə bir sıra mühüm sənədlərin imzalanması mərasimi keçirilmişdir. Eyni zamanda 2005-ci ilin dekabr ayında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyəti İslamabadda rəsmi səfərdə olmuş, Pakistan Senatında və ölkənin universitetlərində rəsmi görüşlər keçirmişdi. İslamabaddakı İncəsənət muzeyində akademik İsa Həbibbəylinin Pakistanda urdu dilində çap olunmuş Cəlil Məmmədquluzadə haqqındakı kitablarından da söz açılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının Baş naziri Şövkət Əzizlə 2006-cı ilin may ayının 5-də keçirilmiş görüşdə qarşılıqlı iqtisadi əməkdaşlığın genişləndirilməsi, elm və texnologiyalar sahəsində əməkdaşlığın zəruriliyi, regional əməkdaşlıq, təhlükəsizlik, iqtisadi əməkdaşlıq, bölgədəki vəziyyət barədə geniş fikir mübadiləsi aparılmış, neft və qaz sahəsində Azərbaycan təcrübəsinin Pakistan üçün əhəmiyyəti haqqında söhbət açılmışdır.

2006-cı ildə keçirilən digər əlamətdar hadisələrdən biri Pakistan Senatının İnsan hüquqları daimi komitəsinin sədri, senator Seyid Məhəmməd Zəfərin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri oldu. Mayın 6-da senator Seyid Məhəmməd Zəfər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə "Ən yaxşı idarəolunan müsəlman dövləti" mükafatını təqdim etmişdir.

2012-ci ildə Bakıda Prezident İlham Əliyevin və Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdabinin görüşü iki ölkə arasındakı münasibətləri daha da genişləndirilmişdir. Bu görüşdə İqtisadi Əməkdaşlıq Təşkilatının Bakıda keçirilən XII Zirvə Toplantısının region ölkələri arasında əməkdaşlığın bundan sonra da inkişafına töhfə verəcəyinə əminlik bildirilmiş, ikitərəfli əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu və bu istiqamətdə birgə fəaliyyətin zəruriliyi vurğulanmışdır.

Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn 11-14 mart 2015-ci il tarixlərində Azərbaycanda rəsmi səfərdə olmuşdur. Səfər zamanı ona Bakı Dövlət Universitetinin fəxri doktoru elmi adı verilmişdir.

Pakistan Azərbaycanın əsas hərbi strateji tərəfdaşlarından biridir. Belə ki, 2018-ci ilin yanvar ayının 18-də Bakıda Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Pakistan İslam Respublikası Birləşmiş Qərargahı arasında Azərbaycan-Pakistan işçi qrupunun 8-ci görüşü keçirilmişdir. Görüşdə hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, regionda təhlükəsizlik, hər iki dövlətin orduları arasında münasibətlərin və əlaqələrin möhkəmləndirilməsi, o cümlədən 2018-ci ildə birgə təlimlərin keçirilməsi məsələləri müzakirə olunmuş, müvafiq protokol imzalanmışdır.

2018-ci il sentyabr ayının 25-27 tarixlərində Bakıda keçirilən 3-cü "ADEX 2018" Azərbaycan Beynəlxalq Müdafiə sərgisində dünyanın müxtəlif ölkələrindən Azərbaycana gələn nümayəndələr sırasında Pakistan nümayəndələri də iştirak etmişlər.

Bu illər ərzində Pakistanla Azərbaycan arasında sıx parlamentlərarası münasibətlər də formalaşmışdır. 2013-cü ilin 11-12 fevral tarixində Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyəti Pakistana işgüzar səfər etmiş və bu zaman Azərbaycan-Pakistan parlamentlərarası əlaqələr üzrə işçi qrupu yaradılmışdır. Pakistan Senatının Beynəlxalq Münasibətlər Komitəsi 1 fevral 2012-ci ildə Azərbaycan Respublikasının Xocalı şəhərində baş vermiş hadisələri soyqırımı kimi tanımışdır. Qəbul edilmiş sənəddə Senat bir daha Azərbaycanın ərazi bütövlüyünü qəbul etdiyini təsdiqləmiş və onun beynəlxalq səviyyədə tanınmış sərhədlərini tanıdığını elan etmişdir. Xocalı soyqırımı ilə bağlı növbəti qətnamə 2 fevral 2017-ci il tarixində Pakistan İslam Respublikasının Milli Assambleyasının xarici əlaqələr üzrə daimi komitəsinin 32-ci iclasında qəbul edilmişdir. Ümumiyyətlə, Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında bu vaxta qədər 30 rəsmi sənəd imzalanmışdır.

Qarşılıqlı münasibətlərin otuz illik tarixində Pakistanla Azərbaycan arasında geniş mədəni əlaqələr qurulmuşdur. Pakistanın elm və təhsil ictimaiyyətinin, ədəbiyyat və mətbuat nümayəndələrinin Azərbaycana maraqları güclü olaraq qalır. 2018-ci ilin sentyabr ayının 20-də Ceyhun Bayramovun Pakistan İslam Respublikası Senatının sədri Məhəmməd Sadiq Səncari ilə görüşündə təhsil sahəsində əlaqələrin cari vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə olunmuşdur. Hazırda Bakı Dövlət Universitetində urdu dili bölməsinin fəaliyyət göstərməsi böyük əhəmiyyət kəsb edir. Naxçıvan Dövlət Universiteti ilə Pakistanın Qayd-e Əzim Dövlət Universiteti və Xarici Dillər Universiteti arasında 2012-ci ildə imzalanmış müqavilə və həmin universitetlərin nümayəndələrinin Naxçıvana səfəri təhsil sahəsindəki əməkdaşlığın əhəmiyyətli səhifələridir.

Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə Pakistanın Müzəffərabad şəhərinin Rara qəsəbəsində müasir tipli məktəb binası tikilib istifadəyə verilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda fəaliyyət göstərən Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsində Pakistan ədəbiyyatı öyrənilir və tədqiq olunur. 2017-2018-ci illərdə bir neçə dəfə Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Bədirxan Əhmədov və həmin şöbənin əməkdaşı, filologiya elmləri doktoru Bəsirə Əzizəliyeva Pakistanda olmuş və bu ölkənin bir sıra universitetlərində keçirilən konfranslarda elmi məruzələrlə çıxış etmişdir. Qeyd edək ki, Pakistan ədəbiyyatı ilə bağlı Bəsirə Əzizəliyevanın Azərbaycanın, Türkiyənin və Pakistanın bir sıra elmi jurnallarında və qəzetlərində məqalələri çap edilmişdir. O, Pakistanın milli şairi Məhəmməd İqbal haqqında monoqrafiyanın müəllifidir. Pakistan İslam Araşdırmaları İnstitutunun əməkdaşları da Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda böyük Azərbaycan şairi İmadəddin Nəsiminin həyatı və yaradıcılığına həsr olunmuş konfransda elmi məruzələrlə çıxış etmişlər. Bundan başqa, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda yaradılmış Pakistan Tədqiqat Mərkəzi xətti ilə qarşılıqlı ədəbi-mədəni əlaqələrə həsr edilmiş araşdırmalar davam etdirilməkdədir.

Dəqiq elmlər sahəsində də iki ölkə arasında əməkdaşlıq getdikcə genişlənməkdədir. Belə ki, 2018-ci il sentyabrın 19-da Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin ekspertləri, Pakistan Atom Enerji Komitəsinin "Kənd Təsərrüfatı və biologiya üzrə Nüvə İnstitutu"nun əməkdaşları doktor Xalid Mahmud və doktor Sajjad Haydar Azərbaycan Milli Elmlər Akademiyasının Radiasiya Problemləri İnstitutunda olmuş, elmi məruzələr etmiş, təmsil etdikləri Nüvə İnstitutunun elmi-tədqiqat istiqamətləri, institutda yerinə yetirilən layihələr haqqında məlumat vermiş, qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Gəncə və Multan şəhərləri arasında 10 aprel 1996-cı il tarixində qardaşlaşmış şəhər münasibətlərinin yaradılması haqqında birgə Bəyannamə imzalanmışdır.

Pakistan ictimaiyyəti Azərbaycanda baş verən tarixi və siyasi hadisələrə həssaslıqla yanaşır. Qarşılıqlı marağın bariz nümunələrindən biri kimi 2013-cü ildə görkəmli dövlət xadimi Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar Pakistanda keçirilən silsilə tədbirlər çərçivəsində bu ölkənin Milli Kitabxanasında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev və Azərbaycan-Pakistan münasibətləri" mövzusunda seminarı və Heydər Əliyev otağının açılmasını göstərmək olar. Tədbirdə çıxış edən Kayde Azam Universitetinin siyasət və beynəlxalq əlaqələr üzrə direktoru və professor Lubna Abid Ali Heydər Əliyevin Pakistan-Azərbaycan münasibətlərinin inkişafına verdiyi töhfələrdən geniş söz açmışdır.

Hazırda Azərbaycan-Pakistan əlaqələri yeni mərhələyə daxil olmuşdur. Xüsusilə qeyd etmək lazımdır ki, İkinci Qarabağ - Vətən müharibəsi zamanı Pakistan ölkəmizin haqlı savaşına tam siyasi və qəti mənəvi dəstək vermişdir. Bu il, 14 yanvar 2021-ci il tarixində Azərbaycan, Türkiyə və Pakistanın Xarici İşlər nazirlərinin İslamabadda keçirilmiş üçtərəfli görüşü regional və beynəlxalq sahələrdə çoxcəhətli əməkdaşlığın daha da inkişaf etdirilməsinə daha geniş imkanlar açmışdır. Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramovun Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi ilə görüşü, xarici işlər nazirlərinin qarşılıqlı əməkdaşlıq haqqında imzaladıqları yeni saziş ölkələrarası əlaqələrin genişləndirilməsinə şərait yaratmışdır. Pakistan İslam Respublikası Ordusunun Baş Qərargah rəisi, ordu generalı Qamar Cavidin "Pakistan hər zaman Azərbaycanın yanında olub və onun haqlı mövqeyini dəstəkləyib" sözləri ölkələrimiz arasındakı etimadın mühüm bir göstəricisidir.

Beləliklə, ən sadiq tərəfdaşlarımızdan və dostlarımızdan biri olan Pakistanın Azərbaycanla siyasi, hərbi, iqtisadi sahələrdə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinə verdiyi böyük töhfə beynəlxalq miqyasda dövlətlərarası münasibətlər baxımından əsl nümunə sayılmasına layiqdir.

*Bu gün Pakistan Asiya qitəsində Azərbaycanın əsas tərəfdaşlarından biri kimi ölkəmizin Şərq tərəfdaşlığına böyük töhfələr verir.*

***Rza TALIBOV,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Bütün yollar Azərbaycandan keçir

## Prezident İlham Əliyevin növbəti təşəbbüsü 300 milyon insanın yaşadığı böyük coğrafiyada firavan gələcəyə təminat verir




*Əvvəli 1-ci səh.*

Bu nəqliyyat arteriyasının Naxçıvana qədər uzadılması üçün Ermənistan ərazisində 40 kilometrlik yolun bərpa edilməsinə ehtiyac var ki, bunu da Rusiya reallaşdıracaq. Çünki Ermənistan dəmir yolları borc qarşılığında Rusiya tərəfinin sərəncamına keçib. Ümumiyyətlə, bu nəqliyyat dəhlizi 30 illik fasilədən sonra tək region ölkələri üçün deyil, daha geniş coğrafiyada iqtisadi aktivliyə səbəb olacaq.

### Azərbaycan nə əldə edir?

Naxçıvana birbaşa dəmir yolu xəttinin çəkilməsi Muxtar Respublika iqtisadiyyatının bütöv Azərbaycan iqtisadiyyatına inteqrasiyasını möhkəmləndirəcək. Bununla da Naxçıvan 30 illik blokadadan çıxmaqla iqtisadi fəallığını artıracaq.

Naxçıvan iqtisadiyyatına nəzər yetirsək görərik ki, onun ÜDM-nin 27.6%-ni sənaye, 12.4%-ni isə kənd təsərrüfatı təşkil edir. Muxtar Respublika istər kənd təsərrüfatı, istərsə də emal sənayesinin genişləndirilməsi, turizmi canlandırması üçün böyük potensiala malikdir. Lakin burada məhsul ixracı baha başa gəlir ki, bu da son nəticədə imkanlardan maksimum faydalanmağa imkan vermir. Bununla belə, 2020-ci ildə Naxçıvanın ticarət dövriyyəsi 510 mln ABŞ dollarından çox olub ki, onun da 428 mln dollarından çox hissəsi ixracın payına düşür.

Naxçıvanla Bakı arasında birbaşa dəmir yolu xəttinin istifadəyə verilməsi buradan ixracı həm sürətləndirəcək, həm də daşıma xərclərini aşağı salacaq ki, bu da son nəticədə istər ölkə, istərsə də ixrac bazarlarında Naxçıvan istehsalı olan məhsulların rəqabət qabiliyyətini artıracaq. Eyni zamanda dəmir yolunun istifadəyə verilməsi ilə Azərbaycan öz strateji tərəfdaşı olan Türkiyə ilə iki istiqamətdə nəqliyyat əlaqəsinin qurulmasına nail olacaq.

### Ermənistanın qazancı olacaqmı?

Sovetlər dönəmində Ermənistanın SSRİ-yə daxil olan ölkələrlə ticarət əlaqələrinin 80 faizi Azərbaycan üzərindən keçən dəmir yolu xətti ilə reallaşdırılırdı. Son 30 ildə isə işğal səbəbindən Ermənistan Gürcüstan üzərindən keçən marşrutlar və hava yolu ilə ticarət əlaqələri yaradır. Bu isə məhsulların qiymətlərini yüksəltməklə yanaşı, sürətini də zəiflədirdi. Belə ki, Rusiya-Gürcüstan-Ermənistan marşrutu, istər quru, istərsə də dəmir yolu olsun, çox çətin coğrafi ərazilərdən keçir. Bu da öz növbəsində həm ticarətin sürətli həyata keçirilməsinə mane olur, həm də daşıma həcmlərini limitləyir.

Ona görə də Azərbaycanın Naxçıvanla birbaşa dəmir yolu əlaqəsi yaratması Ermənistana müasir və sürətli nəqliyyat dəhlizlərinə çıxış imkanı verəcək. Belə ki, Ermənistan eyni anda Azərbaycan, Türkiyə, Rusiya və İranla birbaşa dəmir yolu xəttinə malik olacaq ki, bu da iqtisadi canlanmaya gətirib çıxaracaq. Dəmir yolu xəttinin işə düşməsi Ermənistanın cənub bölgəsində sosial-iqtisadi vəziyyətin yaxşılaşmasına müsbət təsir edəcək. Xüsusən də cənubda yerləşən dağ-mədən kompleksləri daha aktiv şəkildə işləyə və birbaşa Rusiya, Türkiyə bazarlarına çıxış əldə edə biləcəklər. Bununla paralel olaraq Ermənistan Qazaxıstan, Özbəkistan, Türkmənistan və Çinlə ticarəti genişləndirmək imkanı qazanacaq.

### Türkiyə, İran, Rusiya bu dəmir yolundan nə qazanacaq?

Dəmir yolunun istifadəyə verilməsi Türkiyə üçün türk dilli ölkələrlə ticarəti genişləndirməyə imkan yaradacaq. Son illər Türkiyə şirkətləri Türkmənistan, Qazaxıstan, Özbəkistan kimi ölkələrə böyük həcmdə investisiyalar yatırıblar və bu ölkələrdə dövlət sifarişi ilə layihələr icra edirlər. Xüsusi olaraq Orta Asiya ölkələrinə tikinti materiallarının ixracını genişləndirirlər. Ona görə də dəmir yolu xəttinin işə düşməsi Türkiyənin türkdilli ölkələrə məhsul ixracına müsbət təsir edəcək.

Eyni zamanda İğdır və Qars bölgəsinə investisiyaların cəlb edilməsinə müsbət təsir göstərəcək. Adətən ixrac yönümlü şirkətlər daha çox nəqliyyat dəhlizlərinə asan çıxış olan ərazilərə investisiya yatırırlar. İxrac yönümlü məhsullar isə əsasən daha yüksək dəyərli olur. Ona görə də Türkiyədə bu gün üçün əsas sənaye bölgələri sahil ərazilərində cəmləşib. Bu baxımdan dəmir yolu xəttinin işə düşməsi istehsalın Türkiyənin dərinliklərinə gəlməsinə müsbət təsir edəcək.

Rusiya da bu layihədən gəlir əldə edənlər arasında olacaq. Belə ki, ilk dəfə olaraq Rusiya Ermənistan dəmir yollarının istismarından gəlir əldə edəcək. Eyni zamanda rəsmi Moskva-Ankara arasında siyasi dialoqun genişlənməsi iqtisadi əlaqələrin dərinləşməsinə müsbət təsir edəcək. Bu baxımdan Rusiya Türkiyə bazarına dəmir yolu vasitəsilə sürətli çıxış əldə etmiş olacaq.

İran da dəmir yolunun açılmasından fayda götürəcək. İlk növbədə, İranın şimal bölgələrində ixrac yönümlü istehsal genişlənəcək. İran bu dəmir yolunun istifadəyə verilməsindən sonra təkcə Ermənistanla ticarət dövriyyəsini ən azı 50 faizə qədər artıra bilər. Türkiyə ilə də müsbət dinamika müşahidə ediləcək.

### Başqa kimlər faydalana biləcək?

Ümumiyyətlə, Azərbaycanın təşəbbüsü ilə nəqliyyat kommunikasiyalarının tam şəkildə açılması təkcə region ölkələrinin deyil, ümumilikdə, Yaxın Şərq, Orta Asiya, Çin, Skandinaviya ölkələri, Ukrayna, Belarus və Yaponiyanın da iqtisadi maraqlarına tam cavab verir.

Dəhlizin tam şəkildə işə düşməsi Yaponiya-Rusiya-Azərbaycan-Ermənistan-Türkiyə-Yaxın Şərq nəqliyyat dəhlizinin yaranmasına təsir göstərəcək. Beləliklə, Azərbaycan Prezidentinin daha bir təşəbbüsü 300 milyon insanın yaşadığı böyük bir coğrafiyada xalqların birliyinə və firavan gələcəyinə təminat verir.

*Məşhur ifadəyə görə, bir vaxtlar bütün yollar Romaya aparırdı. Bu gün isə bütün yollar Azərbaycandan keçir...*

***Aqil MƏMMƏDOV,***
***politoloq***




# "Kənddən şəhərə" həftəsonu yarmarkası fəaliyyətə başlayıb

**Bu gündən Bakı və Abşeron ərazisində üç fərqli nöqtədə "Kənddən şəhərə" həftəsonu yarmarkaları fəaliyyətə başlayıb.**



Yarmarkalar Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən təşkil olunub. Yarmarkalarda birbaşa fermerlər tərəfindən təbii kənd və qida məhsullarının münasib qiymətlərlə satışı həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, yarmarkanın təşkilində əsas məqsəd fermerlər üçün alternativ satış imkanı yaratmaq və şəhər sakinlərinin kənd təsərrüfatı məhsullarına olan tələbatını daha dolğun təmin etməkdir.

Karantin rejiminin tələblərinə əməl olunmaqla keçirilən yarmarkada əvvəlcədən qeydiyyatdan və tibbi müayinədən keçən fermerlər iştirak edirlər. Onlar ödənişsiz şəkildə piştaxta, tərəzi və digər avadanlıqlarla yanaşı, tibbi ləvazimatlarla (tibbi maska, dezinfeksiyaedici maddələr, əlcək və s.) da təmin olunublar. Yarmarka ərazisində mütəmadi olaraq dezinfeksiya tədbirləri aparılır, yarmarkaya daxil olan vətəndaşların temperaturları ölçülür, ziyarətçilərin sosial məsafəni qorumasına ciddi nəzarət olunur.

# Sahəsi 10 hektar və daha çox olan fermerlərin torpaqları aqrokimyəvi analizlərə cəlb edilir

Kənd Təsərrüfatı Nazirliyinin regional aqrokimya laboratoriyalarında torpaqların aqrokimyəvi analizləri davam edir.



Bu sahədə işin mərhələli təşkilinə uyğun olaraq 2021-ci ildən 10 hektar və daha çox sahəsi olan fermerlərin torpaqları aqrokimyəvi analizlərə cəlb olunur. Torpaq analizlərinin nəticələri payızlıq əkinlərin bəyanı ilə əlaqədar keçirilən monitorinqlərin nəticələri ilə birlikdə Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə (EKTİS) daxil ediləcək. Məlumatlar EKTİS-ə daxil edildikdən sonra əkin subsidiyalarının ödənilməsi həyata keçiriləcək.

Nazirliyin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildiriblər ki, respublikanın 11 bölgəsində ən müasir avadanlıqlarla təchiz edilmiş regional aqrokimya laboratoriyalarında torpaqların aqrokimyəvi analizi fermerlərə torpağın qida elementlərinə olan ehtiyacını, bitkiyə lazım olan gübrə növünü müəyyənləşdirməyə imkan verir, habelə ölkənin aqrokimyəvi torpaq xəritələrinin hazırlanmasına xidmət edir. Torpaq nümunələrinin baza analiz paketinə torpağın pH-ı, duzluluq (EC), mütəhərrik fosfor (P2O5), mənimsənilən kalium (K2O) və ümumi azot ( N ) daxildir. Paketin bir nümunə üçün qiyməti 28 manat təşkil edir. Analiz üçün əkin sahələrindən hər 5 hektardan bir nümunə götürülməsi məqsədəmüvafiqdir.

Fermerlər "Aqrokimyəvi analizlərin aparılması üçün nümunələrin götürülmə təlimatı"na uyğun olaraq sahələrindən torpaq nümunələrini özləri götürərək laboratoriyalara təqdim edə bilərlər. Torpaq nümunələri götürülmüş yerlərin coğrafi koordinatları mütləq qeyd edilməlidir. Fermerlər müvafiq təlimatla Aqrar Xidmətlər Agentliyinin rəsmi internet səhifəsində (www.axa.gov.az) və sosial media hesablarında tanış ola bilərlər.

On hektardan çox sahəsi olan fermerlər öz torpaq nümunələrini təqdim edəcəkləri laboratoriyalar haqqında, habelə Dövlət Aqrar İnkişaf mərkəzlərindən də məlumat ala bilərlər.

# Tarlada da döyüş meydanında olduğu kimi

## Ağcabədililər aqrar sektorun inkişafında da sözlərini deyirlər

**Həyatımıza Qələbə ili kimi daxil olan 2020-ci il artıq tarixə çevrilmişdir. 44 gün davam edən Vətən müharibəsi Azərbaycanın regionda ən güclü orduya malik olduğunu bütün dünyaya nümayiş etdirdi. Təbii ki, qələbə qurbansız olmur.**



Vətən sevdalı say-seçmə oğullarımız doğma yurdun azadlığı uğrunda müqəddəs savaşda canlarından keçib şəhidlik zirvəsinə yüksəldilər. Çox sayda igid övladlarımız döyüşlərdə yaralanıb sağlamlıqlarını itirdilər.

Müasir, modern ordu quruculuğu missiyasını şərəflə yerinə yetirən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev öz xilaskar adını ölkəmizin dövlətçilik tarixinə qızıl hərflərlə yazdı. Ermənistan ordusu darmadağın edilərək diz çökdürüldü. Qarabağın 30 ildən bəri davam edən işğalına son qoyuldu.

Azərbaycan üçün taleyüklü, tarixi əhəmiyyətli bu parlaq qələbənin qazanılmasında Ağcabədinin qəhrəman oğulları yaxından iştirak etdilər, şəhid, qazi oldular. Bu gün ölkəmizin hər yerində olduğu kmi, Ağcabədidə də şəhid ailələri, döyüşlərdə sağlamlığını itirib qazi olanlar hərtərəfli qayğı və diqqətlə əhatə ediliblər.

Qarabağ savaşında qəhrəmanlıq nümunəsi göstərən ağcabədililər canları, qanları bahasına qoruduqları torpaqların əkilib-becərilməsində də fərqlənirlər. Mövcud imkanlardan, əmək ehtiyatlarından, qabaqcıl təcrübədən, mütərəqqi texnologiyalardan səmərəli istifadə rayonun aqrar sektorunun dinamik inkşafına dönməz xarakter vermişdir. Böyük iqtisadi potensiala malik Ağcabədi rayonunda bütün qüvvələr bacarıqla səfərbər edilərək tələb olunan vacib istiqamətlərə yönəldilmişdir.

Xalqımıza böyük qələbənin sevincini yaşadan 2020-ci il eyni zamanda Ağcabədi rayonu üçün iqtisadi yüksəliş ili olmuşdur. Keçən ilin uğurlu yekunları, qarşıda duran vəzifələr barədə Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov inamla danışır:

- İllər, əsrlər ötüb keçəcək, amma xalqımız 2020-ci ili hər zaman böyük qürur hissi ilə xatırlayacaq. Azərbaycanın dilbər güşəsi olan Qarabağ 30 ilə yaxın idi ki, düşmən tapdağında idi. Ermənistan silahlı qüvvələri işğal etdikəri kəndlərimizi, şəhərlərimizi amansızlıqla odlara qalayır, dağıdıb viran qoyurdular. Məscidlərimiz, beynəlxalq əhəmiyyətli tarixi-mədəni abidələrimiz barbarlıqla məhv edilirdi. Nəyi, necə və nə zaman etməyi yaxşı bilən dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ən əlverişli siyasi-tarixi məqamda orduya hücum əmri verdi və dünyanı heyrətə salan ən qısa zaman ərzində düşmən ordusunu diz çökdürüb kapitulyasiyaya məcbur etdi. Bu, xalqımızın alqışa layiq gördüyü xilaskarlıq missiyasının şərəflə reallaşmasının möhtəşəm təntənəsi idi. Ölkəmizin siyasi rəhbərliyinin, xalqın və ordunun sarsılmaz birliyi dəmir yumruğa çevirilib düşmənin başını əzdi. Bu gün bütün xalqımız kimi, ağcabədililər də həsrətlə gözlədiyimiz qələbənin sevincini yaşayırlar. Biz yaxşı başa düşürük ki, bu qələbəni davamlı və dayanıqlı etmək üçün güclü iqtisadiyyat mühüm şərtdir. Ona görə qətiyyən axrayınlaşmır, kənd təsərrüfatı məhsulları istehsalını hər vasitə ilə yüksəltmək, ölkənin iqtisadi qüdrətini artırmağa sanballı töhfələr vermək üçün bütün qüvvələri səfərbər edirik. İndi heyvandarlıq fermalarında, taxıl zəmilərində, pambıq əkiləcək sahələrdə zəruri təsərrüfat işləri görülür. Yaz tarla işlərinə hər yerdə ciddi hazırlaşırıq. Əsas hədəfimiz aqrar sektorun dinamik inkişaf tempini qoruyub saxlamaqdır.

RİH başçısının fikirlərini rayonun statisik göstəriciləri də təsdiq edir. Ölkənin böyük potensiala malik kənd təsərrüfatı rayonlarından olan Ağcabədinin iqtisadiyyatında əsasən taxılçılıq, pambıqçılıq və heyvandarlıq aparıcı rol oynayır. Rayon üzrə kənd təsərrüfatına yararlı torpaq sahəsi ümumi ərazinin 71,8 faizini təşkil edir. Keçən təsərrüfat ilində istehsal olunan kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 250 milyon manata yaxındır. Bunun 59 faizi heyvandarlıq, 41 faizi bitkiçilik məhsullarının payına düşür. Ötən təsərrüfat ilində 68,6 min hektardan çox sahədə müxtəlif kənd təsərüffatı bitkiləri əkilib-becərilmiş, yüksək məhsuldarlığa nail olunmuşdur.

Prezident İlham Əliyevin kənd təsərrüfatında ənənəvi sahələrin, xüsusilə strateji məhsul olan, ölkəyə valyuta gətirən pambıqçılığı inkişaf etdirmək barədə tapşırıq və tövsiyələri Ağcabədi kəndlisinin fəaliyyətinə aydın istiqamət verir. Keçən il 10689 hektar sahədə pambıq əkilib-becərilmiş, 37992 ton məhsul istehsal olunmuşdur. Hər hektarın məhsuldarlığı 35,5 sentnerə yüksəlmişdir ki, bu da əvvəlki ildəkilərdən 4,8 sentner çoxdur. Bərəkətli torpağa qırılmaz tellərlə bağlanan, halal zəhmətə güvənən Ağcabədi kəndlisinin pambıqçılıq sahəsində cari il üçün hədəfi istehsalı artırmaqdır. Bunun üçün indidən etibarlı bünövrə yaradılır. Hazırda pambıq əkiləcək sahələr qış aratına qoyulur. Səpin və becərmə texnikasının keyfiyyətli təmirinə xüsusi fikir verilir.

Keçən il rayonun təsərrüfatlarında həmçinin 105,5 min ton taxıl, 21656 ton qarğıdalı, 1953 ton kartof, 3216,5 ton tərəvəz, 8871 ton barama istehsal olunmuşdur. Heyvandarlar da ötən ili yüksək nəticələrlə başa vurmuşlar. 12811 ton ət, 126642 ton süd, 17 milyon 386 min ədəd yumurta istehsal olunmuşdur ki, bunlar da əvvəlki illə müqayisədə xeyli çoxdur.

Kənd təsərrüfatının dinamik inkişafını şərtləndirən əsas tələblərdən biri də əkinlərin suvarma suyu ilə etibarlı təmin olunmasıdır. Bu sahədə uzun zamandan bəri rayonda obyektiv çətinliklər mövcuddur. Rayon Suvarma Sistemləri İdarəsinin rəisi Malik Həsənov bizimlə söhbətində bu sahədəki problemin aradan qaldırılması istiqamətində görülən işlərdən danışdı. Həmsöhbətimiz dövlətin davamlı qayğısını, Meliorasiya və Su Təsərrufatı Açıq Səhmdar Cəmiyyətinin edilən müraciətlərə hər zaman operativ və müsbət yanaşdığını vurğuladı. Dövlət başçısının müvafiq sərəncamı ilə yeni subartezian quyularının qazılıb istismara verilməsi, mövcud nasos stansiyalarının, suvarma kanallarının təmir edilib saz vəziyyətə gətirilməsini deyən M.Həsənov onu da qeyd etdi ki, rayonun Haramı adlanan ərazisində "Qara su" çökəkliyində Mil kanalından qidalana biləcək su anbarının yaradılması barədə baş idarəyə təklif verilmişdir. Əgər bu ideya reallaşarsa, əkinlərin suvarma suyu ilə təminatında problemlərin böyük qismi aradan qaldırılacaq.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***



# Bolluq yaradanlar

## Masallı fermerləri məhsul istehsalını ildən-ilə artırırlar

**Atalar yaxşı deyib: "Payızdan bir ay qalmış qış, qışdan bir ay qalmış yazdır". Yazın gəlməsinə az qalır. Çərşənbələr qapını döyməyə hazırlaşır. Torpaq qış yuxusundan yavaş-yavaş oyanır. Havaların nisbətən isti keçdiyi cənub bölgəsində bu özünü daha aydın büruzə verir. Artıq çöldə, düzdə, yamaclarda, dağların ətəklərində ana təbiətin yaşıl xalısının ilmələri - otlar, çiçəklər torpaqdan baş qaldırır.**

Bunlar isə hər bir kənd adamını, torpaq mülkiyyətçisini, fermeri yaz tarla işlərinə hazırlaşmağa, toxum, gübrə tədarük etməyə, əkində, becərmədə istifadə olunacaq traktora, malaya, toxumsəpən aqreqatlara əl gəzdirməyə və digər zəruri tədbirləri görməyə tələsdirir. Təcrübə göstərir ki, işgüzar, tədbirli adamlar işin ən qızğın çağında belə çətinlik çəkmir, aqrotexniki tədbirləri vaxtında və keyfiyyətlə həyata keçirməyə müvəffəq olurlar. Belə olduqda torpaq da öz səxavətini əsirgəmir, çəkilən zəhmətin əvəzində bol məhsul yetişdirir.

Çəltikçilik dədə-babadan Masallı üçün ənənəvi sahə olub. Lakin sonradan onun əkilib-becərilməsi dayandırılıb, nəticədə əhali düyüdən qıtlıq çəkməyə başlayıb. Bəs yerli düyünün yetişdirilməsinin qarşısını alan səbəb nə idi? Rusiyanın iri şəhərlərini, o cümlədən Moskvanı tərəvəz məhsulları ilə təchiz etmək lazım idi. Bunun üçün Azərbaycanın əsasən cənub bölgəsini - Lənkəran, Astara və Masallı rayonlarını müəyyən etmişdilər. İqlim şəraitinə görə bu yerlərdə tərəvəz həm tez yetişir, həm daha dadlı, həm də ekoloji cəhətdən təmiz olur. Eyni zamanda ucuz başa gəlir. Bu səbəbdən də Azərbaycanın cənub regionunda çəltikçilik ləğv edilərək Rusiyanın ucuz tərəvəzçilik bazasına çevrilmişdi.

İllər keçdi və dövran dəyişdi. Müstəqil Azərbaycanda torpaqlar əsl sahiblərinə veriləndən sonra kəndli torpağının ağası oldu, istədiyini əkmək hüququ əldə etdi. Düzdür, ilk illər fermerlər, torpaq sahibləri texnika, toxum, gübrə və s. məsələlərdə bəzi çətinliklərlə qarşılaşdılar. Lakin həmin çətinliklər də tədricən aradan qaldırıldı. Rayonlarda aqrolizinqlər, fermer təsərrüfatları, istehsal və emal müəssisələri yaradıldı, onların kadr potensialı savadlı, bacarıqlı, işgüzar gənclər hesabına möhkəmləndirildi. Prezident İlham Əliyev kənd təsərrüfatının, habelə sitrus meyvəçiliyinin, heyvandarlığın və başqa sahələrin inkişafı, ərzaq təhlükəsizliyinin təmin olunması, idxaldan asılılığın minimuma endirilməsi, kəndlərdə yeni iş yerlərinin yaradılması üçün mühüm tədbirlər gördü, müvafiq fərman və sərəncamlar imzaladı.

Yaradılan belə münbit şərait Masallı sahibkarları üçün də xeyirli olmuşdur. Dövlət tərəfindən verilən subsidiyalar, güzəştlər adamları torpağa qaytarmışdır. Təkcə keçən il rayonun ayrı-ayrı kəndlərində 253,9 hektarda çəltik əkilmişdir. Nümunəvi qulluq nəticəsində 368 ton yüksəkkeyfiyyətli çəltik toplanmış, hər hektarın məhsuldarlığı 34,2 sentnerə çatmışdır. Boradigah qəsəbə sakini Fərhad Qəniyev, Tüklə kənd sakini Təbib Mehdiyev, Xıl kənd sakini Elmir Nadirov hektardan daha çox məhsul əldə etmişlər.

Yetişdirilən çəltiyin emalı ilə bağlı əvvəllər mövcud olan problem də artıq həll olunmuşdur. Sahibkar Elxan Qənbərov kredit götürərək Çin Xalq Respublikasından müasir avadanlıqlar alıb zavod yaratmışdır. Əvvəlki illərdə olduğu kimi, fermerlər daha Lənkəran, Astara rayonlarına getmir, çəltiyi burada emal edirlər. Emal edilən düyü isə əhali tərəfindən həvəslə alınır. Çünki yerli düyü ekoloji cəhətdən daha təmizdir.

Çayı min bir dərdin dərmanı hesab edirlər. Adına şeirlər qoşulub, nəğmələr bəstələnib. "Armudu stəkanda çay" yorğunluğu çıxarır, ruha dinclik gətirir. Təəssüflər olsun ki, müstəqilliyimizin ilk illərində bu mühüm sahə də tənəzzülə uğramışdı. Torpaq islahatı keçirilərkən kəndlilər paylarına düşən çay sahələrini qorumaq, ona qulluq göstərmək əvəzinə, torpağı başlı-başına buraxmışdılar. Çoxları həmin plantasiyaları heyvanlar üçün örüş etmişdilər. Əslində, buna görə onları qınamaq, günahkar saymaq da olmazdı. Çünki iqtisadi əlaqələr kəsildiyindən yaşıl çay yarpağını emal edən fabriklər işləmirdi və bu səbəbdən sökülüb dağıdılırdı.

Hazırda bu sahədə vəziyyət tamam fərqlidir. "Çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində Masallıda çay əkini sahələri 125 hektara çatdırılmışdır. Onun 100 hektarı 2015-2018-ci illərdə "Azərsun-Holdinq" şirkəti tərəfindən salınmışdır.

Cari il isə rayon üzrə 17 hektar çay plantasiyası salınmışdır. Ümumiyyətlə, Masallıda çay sahələrinin həcmi ildən-ilə genişləndirilir. Lakin çay bitkisinin özəl xüsusiyyəti var. Yəni 7 ildən sonra bar verməyə başlayır. Belə müddət fermerləri, sahibkarları, şirkətləri bəzən qane etmir. Onlar qoyduqları vəsaitin xeyrini daha tez götürmək istəyirlər. Amma məsələnin o biri tərəfini fikirləşmirlər ki, çay sahələrinin 100 ildən çox ömrü olur və o bu illər ərzində məhsul verir, sahibinə gəlir gətirir.

Onu da deyək ki, Azərbaycan çayı keyfiyyətinə, ekoloji təmizliyinə görə istehlakçıların rəğbətini qazanmışdır. Bizim çayımız inkişaf etmiş ölkələrin ticarət şəbəkələrində Azərbaycan brendi kimi yaxşı qiymətə satılır. Məlumat üçün onu da vurğulayaq ki, sovetlər zamanı Masallıda 3 min 336 hektar çay plantasiyası olub. Hər il orta hesabla 11 min ton yaşıl çay yarpağı yığılıb və burada fəaliyyət göstərən 5 fabrikdə emal edilib. Mütəxəssislərin hesablamalarına görə, yetişdirilən bu qədər çayın dəyəri təxminən 12 milyon dollar etmişdir. Bu isə o deməkdir ki, istər plantasiyalarda, istərsə də fabriklərdə yüzlərlə adam işləyib, ailəsini dolandırıb. Deməli, rayonda bu sahənin inkişafı hərtərəfli sərfəlidir.

Rayonun düzənlik ərazisində kartofçuluq üçün yaxşı şərait var. Burada torpağın münbit olması ilə yanaşı, əkilən bitkiləri artezian quyuları ilə suvarmaq mümkündür. Odur ki, torpaq mülkiyyətçiləri, sahibkarlar kartof əkini sahələrini ilbəil artırırlar. Bunun başlıca səbəbi kartofun onlara yaxşı gəlir gətirməsidir. İndi cənub bölgəsinə gedənlər Cəlilabad və Masallı rayonlarının ərazisindən keçərkən yolboyu birbirinin ardınca sıralanmış kartof sahələrini görürlər. Onların bir çoxunun üstü sellofanla örtülmüşdür. Örtük altında olan sahələrdə açıq havaya nisbətən kartof daha tez yetişir. Nübar məhsul isə baha qiymətə satıldığından yaxşı gəlir gətirir. Aprel ayının sonu, may ayının əvvəllərində yığılan bu məhsul əsasən Rusiya Federasiyasının bazarlarına göndərilir. Məlumat üçün bildirək ki, keçən il Masallıda 880,5 hektarda kartof əkilmiş, sahələrdən 15 min 303 ton məhsul əldə olunmuşdur. Cari ilin məhsulu üçün isə yanvar ayının sonundan başlanan əkin davam edir.

Son illər rayonda çiyələyə də maraq artır. Rayon üzrə ötən il 217 hektarda çiyələk əkilmişdir. Təcrübəli fermer Cəsarət Əzizovun Təzə Alvadı kəndində 26 hektardan bir qədər çox çiyələk sahəsi var. Burada Türkiyədən və Amerikadan gətirilən "Albion" və "Şahandres" sortları əkilmişdir. Keçən il C.Əzizov hər hektardan 100-150 sentner məhsul götürmüşdür. O, sahənin kənarında soyuducu anbar quraşdırıb. İsti yay günlərində dərilən çiyələk 2-5 dərəcə arasında soyudularaq avtorefrijatorlarla Rusiyanın şəhərlərinə yola salınır.

Masallıda baramaçılıq, arıçılıq, tütünçülük sahəsində də dinamik inkişaf var. Ötən il rayona 140 qutu ipəkqurdu toxumu gətirilərək 57 kümçüyə paylanmış, onların səyi ilə 2 min 287,5 kiloqram yaş barama tədarük edilərək "Azəripək" MMC-yə təhvil verilmişdir. Buna görə baramaçıların bank hesabına 8 min 900, habelə Aqraq Kredit və İnkişaf Agentliyi tərəfindən 11 min 140 manat köçürülmüşdür.

2018-ci ildən başlayaraq arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə hər arı ailəsinə görə 10 manat subsidiya verulməsi və dövlət tərəfindən dəstək göstərilməsi əhalinin bu sahəyə də marağını xeyli artırmışdır. Keçən il rayon üzrə 564 arıçı saxladıqları 9 min 918 arı ailəsini Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində qeydiyyatdan keçirmişdir. Həmin arı ailələri Masallı DAİM-in mütəxəssisləri tərəfindən monitorinq edilmiş və arıçılara 5 min 640 manat subsidiya ödənilmişdir. Bütövlükdə, ötən il rayonda 50 tondan çox bal tədarük edilmişdir.

Tütünçülük də Masallı üçün ənənəvi sahədir. Keçən il 51 hektarda tütün əkilmiş, 87,1 ton tütün yarpağı yığılaraq Masallı şəhərindəki "İlham-M" MMC-nin qəbul məntəqəsinə təhvil verilmişdir.

Göründüyü kimi, Masallı rayonunda məhsul bolluğu yaratmaq, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması üçün məqsədyönlü iş aparılır. Şübhə yoxdur ki, inkişaf tempi cari ildə daha sürətlə davam edəcək.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Şirin bibər bitkisi ilk dəfə olaraq in vitro şəraitdə yetişdirilir

**Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun Aqrobiotexnologiya laboratoriyasında şirin bibər bitkisinin ilk dəfə olaraq in vitro şəraitdə yetişdirilməsi həyata keçirilir.**



Uzun müddətdir ki, institutda şirin bibər bitkisinin seleksiyası istiqamətində tədqiqat işləri ənənəvi seleksiya metodlarına əsasən aparılıb. Hazırda müasir biotexnoloji metodlardan istifadə edilməklə, şirin bibərin in vitro şəraitdə yetişdirilməsinə dair tədqiqat işlərinin yerinə yetirilməsinə başlanılıb. Ənənəvi seleksiya metodlarından fərqli olaraq bu üsul sortların daha qısa müddətə yaradılmasına və keyfiyyət göstəricilərinin yüksək olmasına imkan yaradır.

İnstitut tərəfindən aparılmış uzunmüddətli tədqiqat işləri nəticəsində şirin bibərin həm açıq, həm də örtülü sahə üçün yerli sortları yaradılıb və rayonlaşdırılıb. Bu məqsədlə institutda şirin bibərin həmin rayonlaşdırılmış sortlarından istifadə edilir. İn vitro şəraitində şirin bibərin yerli sortları qəbul olunmuş beynəlxalq metodikanın tələbinə uyğun olaraq bitkinin böyümə və inkişafı üçün zəruri hesab edilən müxtəlif qida maddələrindən hazırlanmış qida mühitində yetişdirilir.

Eyni zamanda laboratoriyada in vitro şəraitində əmələ gəlmiş bitkilərin üzərində patogen göbələklərin, Elisa və PZR üsulları ilə virusların müəyyən edilməsi istiqamətində tədqiqat işləri aparılır. Bitkinin bütün həyat tsiklinə mütəxəssislər tərəfindən müasir avadanlıq və cihazlar vasitəsilə süni iqlim otaqlarında nəzarət həyata keçirilir. Belə ki, müasir seleksiyada biotexnoloji metodların tətbiqi olduqca mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə institutda tədqiqat işlərinin daha da genişləndirilməsi nəzərdə tutulur.

# Şamaxı üzümçüləri bağlarda quru budama işlərini davam etdirirlər

**Şamaxı rayonunun üzümçüləri bağlarda quru budama işlərini sürətlə davam etdirirlər və artıq 1360 hektarda bu iş başa çatdırılıb.**

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildirilib ki, quru budama üzümçülükdə mühüm aqrotexniki tədbirdir. Erkən yazadək tinglərin budanması və bağlama işləri başa çatdırılmalıdır. Rayonda bu iş üçün 800 nəfərdən çox işçi qüvvəsi cəlb olunub. Onlar qabaqcadan mütəxəssislər tərəfindən təlimatlandırılıblar.

Qeyd edək ki, vaxtilə üzümçülük bölgəsi kimi tanınan Şamaxıda son illər bu sahə sürətlə inkişaf etməkdədir. Hazırda rayonda 1835 hektardan çox üzüm bağı var ki, bunun da 1673 hektarı bar verir. Təkcə ötən il 150 hektarda yeni bağlar salınıb. Məhsul istehsalı da ildən-ilə artır və 2020-ci ildə 12 min 472 ton olub.

Rayonun Şəhriyar, Meysəri, Mədrəsə və digər ərazi dairələrində Azərbaycanda vaxtilə məşhur olan və xarici ölkələrə də ixrac edilən yerli "Şamaxı mərəndisi", "mədrəsə", "bayanşirə", "ağadayı", "hafizəli", "kişmişi" sortları yetişdirilir.

# Biz birlikdə güclüyük!

## Vaksinasiya mərhələsində də pandemiya şərtlərinə əməl olunmalıdır

*Əvvəli 1-ci səh.*

Ölkəmizdə Çinin "SinoVac" şirkətinin istehsal etdiyi "CoronoVAC" vaksinindən istifadə olunur. Bu vaksinin yaratdığı immunitetin minimum müddəti bir ildir. Peyvəndin maksimum müddəti isə hələ təsdiqlənməyib.

Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, azərbaycanlı alim Nuran Abdullayev bildirib ki, Azərbaycanda tətbiq olunan "CoronoVac" peyvəndi tibbdə bugünə qədər uğur qazanmış inaktiv peyvəndlər qrupuna daxildir. Bu peyvəndin 2-ci fazada edilən tədqiqatının nəticəsi elmi ədəbiyyatda çap edilib. 3-cü fazanın son nəticələrinin də əsas hissələri elmi tədqiqat şəklində dərc edildikdən sonra onunla hər kəs tanış ola biləcək: "CoronaVac" peyvəndi Çin istehsalı olan və bir neçə ölkədə artıq istifadə olunan "Sinopharm"ın "Vero" peyvəndi kimi inaktiv SARS-CoV-2-dən hazırlanır. İnaktivləşməsində əsasən beta-propiolaktondan və vaksinin təsir gücünü artırmaq üçün alüminium-hidroksiddən istifadə olunduğu bildirilir. İnaktiv peyvəndlər tibbdə uğur qazanmış peyvəndlər qrupuna daxildir, ona görə bu dəfə də uğur qazanacağı istisna deyil".

Azərbaycanda pandemiyaya qarşı əldə olunan müsbət tendensiya sərt karantin rejiminin tədricən yumşaldılmasına da şərait yaradıb. Xüsusilə təhsil sahəsində əyani tədrisin bərpası ilə bağlı bir çox açılımlar həyata keçirilib. Fevralın 1-dən Bakı, Sumqayıt, Abşeronda ibtidai təhsil, məktəbəhazırlıq, icma əsaslı qrupların fəaliyyətinə mərhələli şəkildə başlanılıb. İri şəhərlərdə tədris həftədə 3 dəfə, rayonlarda isə həftədə 4 və 5 dəfə olmaqla bərpa edilib.

Fevralın 8-dən isə Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu istisna olmaqla, ölkənin digər şəhər və rayonlarında ümumtəhsil müəssisələrində tədris ümumi orta təhsil səviyyəsində (I-IX siniflərdə) həftədə 5 dəfə olmaqla həyata keçirilir. Layihə tutumu və şagird sıxlığı təhsilalanlar arasında fiziki məsafəni gözləməyə imkan verməyən ümumtəhsil müəssisələrində isə tədris ümumi orta təhsil səviyyəsində (I-IX siniflərdə) həftədə 3 dəfə olmaqla keçirilir. Uşaq-gənclər inkişaf mərkəzlərində aşağı yaş qruplarında (I-IV siniflər) dərnək məşğələləri həftədə 2 dəfə olmaqla ənənəvi formada keçirilir.

15 fevral tarixindən isə Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunda yerləşən ümumtəhsil müəssisələrinin məktəbəhazırlıq mərhələsində tədris həftədə 2 dəfə, ibtidai təhsil səviyyəsində (I-IV siniflərdə) həftədə 3 dəfə, ümumi orta təhsil səviyyəsində (V-IX siniflərdə) həftədə 2 dəfə, xüsusi məktəblərdə (I-IX siniflərdə) həftədə 5 dəfə olmaqla bərpa edilib.

Eyni zamanda bu ayın 15-dən Bakı şəhəri üzrə fəaliyyət göstərən dövlət və özəl uşaq bağçaları fəaliyyətini davam etdirməyə başlayıb.

Mütəxəssislərin də vurğuladığı kimi, karantin rejiminin yumşaldılması zamanı yoluxma riski artır. Elə buna görə də hazırkı mərhələdə ikiqat məsuliyyətli olmaqla qaydalara daha ciddi riayət etməliyik. Bununla bağlı Daxili İşlər Nazirliyi vətəndaşlara müraciət edərək bildirib ki, pandemiya şəraitində hər bir şəxs izolyasiya qaydalarına, epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin qaydalarına əməl etməlidir. Bu dövrdə fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı müəyyən edilən tələblərə əməl edilməsi vətəndaşların sağlamlığına xidmət edir: "Nə dövlət, nə polis kiminsə bu qaydaları pozmasına görə cərimələnməsində maraqlı deyil. Pandemiya şəraitində vətəndaşlarımız qaydalara ciddi əməl etməklə, özünü, yaxınlarını, bütövlükdə cəmiyyəti bu bəladan qorumalıdır. İnzibati cərimə çəkindirici xarakter daşıyır, inzibati xəta törədən şəxsi qanunlara əməl edilməsi ruhunda tərbiyələndirmək, habelə həm inzibati xəta törətmiş şəxs, həm də başqa şəxslər tərəfindən yeni inzibati xəta törədilməsinin qarşısını almaq məqsədindən irəli gəlir. İndiki şəraitdə bu məsuliyyət hər birimizin həyat tərzi olmalıdır. Bir daha diqqətə çatdırırıq ki, xüsusi karantin rejiminə nəzarəti həyata keçirən polis əməkdaşları hansısa vətəndaşın cərimə edilməsində maraqlı deyil. Yetər ki, vətəndaşlar tibbi maskadan düzgün istifadə etsinlər".

Müraciətdə qeyd olunub ki, tək Azərbaycanda yox, dünyanın bütün ölkələrində pandemiya ilə əlaqədar hüquq normaları var. Bu hüquq normalarının təmin edilməsinə ciddi nəzarət olunur: "Bir sıra dövlətlər tərəfindən pandemiyanın geniş yayılmasının qarşısının alınmasında müəyyən edilən qaydaların yerinə yetirilməsi üçün daha sərt cəza tədbirləri həyata keçirilir. Məsələn, tibbi maskalardan istifadə etməyən şəxslərə Türkiyədə 219 manat, Almaniyada 307 manat, Böyük Britaniyada 235 manat, Fransada 276 manat, ABŞ-da 510 manatdan 550 manata qədər cərimələr tətbiq edilir. Elə ölkələr var ki, orada daha yüksək cərimələr olmaqla yanaşı, 30 sutka həbs qərarı olan hüquq normaları tənzimlənir".

Bu bir reallıqdır ki, COVID-ə qarşı aparılan hərtərəfli mübarizə, mərhələli şəkildə həyata keçirilən vaksinasiya prosesi ilə paralel olaraq vətəndaşların da qaydalara məsuliyyətli yanaşması sayəsində təhlükəli virusdan birdəfəlik can qurtarmaq mümkündür. Bunun üçün də maska taxmalı, sosial məsafəni gözləməli, gigiyena qaydalarına riayət etməliyik.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***




## Muxtar respublikada ilk mərhələdə 3500 tibb işçisi vaksinasiya edilib

Naxçıvan şəhərinin tibb müəssisələrində, o cümlədən muxtar respublikanın rayonlarında səhiyyə işçiləri arasında COVID-19 xəstəliyinə qarşı vaksinasiyanın ilk mərhələsi başa çatıb.



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, rayon mərkəzi xəstəxanalarının, gigiyena və epidemiologiya şöbələrinin, kənd sahə xəstəxanalarının, həkim ambulatoriyalarının, feldşer-mama məntəqələrinin də tibb işçiləri "CoronoVac" vaksini ilə peyvəndlənib. Bütövlükdə, 3 min 500 nəfər tibb işçisi vaksinasiya edilib. Təhlükəsizliyinə və effektivliyinə görə seçilən bu vaksinasiyada heç bir problem müşahidə olunmayıb. Peyvəndin birinci dozası vurulduqdan 21-28 gün sonra ikinci doza vurulur.

Qeyd edək ki, "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün vaksinasiya strategiyası"na müvafiq olaraq muxtar respublikanın səhiyyə müəssisələrində də ardıcıl tədbirlər həyata keçirilir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində xüsusi komissiya fəaliyyət göstərir. Xüsusi işçi qrupu tərəfindən həyata keçirilən peyvənd ilkin mərhələdə risk qrupuna daxil olan şəxslərə vurulur.

## Şirvanda 800-dək sakin koronavirusa qarşı peyvənd olunub

Şirvanda COVID-19 infeksiyasına qarşı vaksinasiyanın növbəti mərhələsi icra olunur. Bu mərhələdə şəhər üzrə yaşı 65 və ondan yuxarı olan 4700 vətəndaşın peyvənd olunması nəzərdə tutulub və bu günə kimi 799 nəfər vaksinasiyadan keçib.



AZƏRTAC xəbər verir ki, Şirvan Şəhər Mərkəzi Xəstəxanasında vaksinasiyanı müvəffəqiyyətlə başa çatdırmaq üçün peyvənd otaqlarında Tibbi Ərazi Bölmələri İdarəetmə Birliyinin (TƏBİB) təlimatına uyğun zəruri şərait yaradılıb. Vaksinasiya zamanı yarana biləcək sıxlığın və digər çətinliklərin qarşısını almaq məqsədi ilə qeydiyyat prosesi onlayn qaydada keçirilir. Onlayn qeydiyyatdan keçməyən vətəndaşlar isə birbaşa şəhər mərkəzi xəstəxanasının infeksion xəstəliklər şöbəsinə müraciət edirlər. Bundan əlavə, qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərdə vətəndaşların razılığı olduğu halda onların onlayn qeydiyyatdan keçməsinə kömək də göstərilir.

## Zaqatalada indiyədək tibb işçiləri və yaşlı vətəndaşlara 3037 doza vaksin vurulub

Koronavirus pandemiyasının qarşısının alınması məqsədilə ölkəmizdə həyata keçirilən vaksinasiya tədbirləri çərçivəsində Zaqatala rayonunda əhalinin COVID-19 infeksiyasına qarşı peyvənd olunması prosesi davam edir.

Əhalinin peyvəndlənməsi rayon mərkəzi xəstəxanasının infeksion xəstəliklər şöbəsinin binasında xüsusi olaraq ayrılmış vaksin otaqlarında həyata keçirilir. Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq vaksinasiyanın birinci mərhələsində tibb işçiləri və 65 yaşdan yuxarı vətəndaşlar peyvənd olunurlar. Artıq 50 yaşdan yuxarı vətəndaşların da peyvəndlənməsinə başlanılıb. Ümumiyyətlə, bu günədək Zaqatala rayonu üzrə tibb işçilərinə və yaşlı vətəndaşlara 3037 doza vaksin vurulub.

Zaqatala Rayon İcra Hakimiyyəti başçısının müavini, vaksinasiyanın keçirilməsi üzrə yaradılan qərargahın üzvü Vəfa Süleymanova AZƏRTAC-a bildirib ki, strategiyaya uyğun olaraq ilkin mərhələdə 1520 tibb işçisinə peyvəndin birinci dozası vurulub. Fevralın 17-dən etibarən onlara vaksinin ikinci dozasının vurulmasına başlanılıb və bu günədək 741 tibb işçisi təkrar peyvənd olunub. Eyni zamanda indiyədək yaşı 65-dən yuxarı olan 762 vətəndaşa da peyvəndin birinci dozası vurulub və proses davam edir.

Qeyd edək ki, peyvəndləmə prosesində Çinin "Sinovac" şirkətinin istehsal etdiyi "CoronoVAC" vaksinindən istifadə olunur. Bu vaksin effektivliyi ilə digərlərindən seçilir.

## Tənəzzülə uğrayan Ermənistan yeni siyasi xaosa sürüklənir

*Əvvəli 1-ci səh.*

Çünki o zaman ölkədəki vəziyyət və xalqın özü inqilab üçün yetişmişdi. Məcburi istefasından sonra uzun müddət inadkar bir susqunluq saxlayan Serj Sarkisyan son zamanlar cəsarətə gəlib və siyasi reabilitasiya arzusunu nümayiş etdirir. Bildirilir ki, Sarkisyanın istefasından sonrakı 2 ildə o başa düşürdü ki, böyük siyasətə qayıtmaq üçün heç bir şansı yoxdur - xalq hələ onun hakimiyyət dövrünün ağrılarını unutmayıb. Paşinyanın isə o yan-bu yana vurnuxmasına və populizminə baxmayaraq, şəxsi reytinqi Ermənistan daxilində olduqca yüksək idi. Son parlament seçkilərində Sarkisyanın partiyası heç 5 faizlik baryeri aşıb parlamentə düşə bilmədi.

Müəllif yazır ki, sonra müharibə oldu, Ermənistanda çətin anlar başladı və Paşinyanın reytinqi kəskin endi. Və elə bu andan da bütün dəlmə-deşiklərdən siyasi meyitlər çıxmağa başladı: "Ancaq Sarkisyanın siyasi reabilitasiya şansı dostu Robert Koçaryandan da azdır. Əgər hətta onların reytinqləri toplanılsa, Nikol Paşinyanın indiki reytinqinə çatmaz. Bunun da bir izahı var: xalq hələ öz yaddaşını itirməyib. Hətta kapitulyasiyadan sonra da Paşinyanla Koçaryan-Sarkisyan koalisiyası arasında seçim etmək lazım olsa, əksəriyyət yenə birincini üstün tutacaq".

Vurğulanır ki, Sarkisyan Paşinyanın daha əlverişli şərtlərlə münaqişənin həlli üçün əldən verdiyi fürsətlər haqqında çox şey söyləyib: "Bağışlayın, ölkədə 10 il hakimiyyətdə olan siz deyildiniz ki? Niyə münaqişəni bizim üçün əlverişli şərtlərlə həll etmədiniz? Onun müsahibəsindəki bütün cəfəngiyyat da buna yönəlib - bulanıq suda balıq tutmaq. Və bizim xalq da bunu bilməlidir və unutmamalıdır ki, 2018-ci ilin yazında rüsvayçı şəkildə qovduğumuz adamlar hakimiyyətə can atırlar..."

Ermənistanda sosial-iqtisadi sahədə yaşanan problemlərin getdikcə dərinləşməsi əhalinin narazılığının əvvəlki kimi yüksək həddə olması ilə müşayiət edilir. Hökumət isə mövcud problemləri aradan qaldırmaq iqtidarında deyil. Çünki ölkənin buna maddi gücü yoxdur. İqtisadçı Qrant Baqratyan da vurğulayır ki, sosial-iqtisadi vəziyyət olduqca ağırdır: "Müharibə və pandemiyadan sonra yaşanan sosial-iqtisadi böhran vətəndaşların səbir kasasını doldurub. Hər kəs yaxşı yaşamaq arzusundadır, amma ölkədə heç nə dəyişmir. Ermənistanın hazırkı iqtisadi vəziyyətini nəzərə alsaq, heç bir siyasi rejim bu vəziyyətdə özünü doğrulda bilməz. Siyasi rejim dəyişsə belə, hakimiyyət problemləri həll etmək iqtidarında deyil".

Hər halda proseslərin gedişi Ermənistanı qarşıdakı dövr ərzində daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# 21 Fevral Beynəlxalq Ana Dili Günüdür

## Xalqımızın ən böyük mənəvi sərvəti, dövlət müstəqilliyimizin atributu

**1999-cu ilin noyabrında UNESCO-nun Baş konfransının 30-cu sessiyasında təsis edilməsi ilə dünya təqviminə daha bir əlamətdar gün yazıldı. O vaxtdan fevralın 21-i dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur.**

**Beynəlxalq Ana Dili Günü 1952-ci il fevralın 21-də Banqladeşin Benqal şəhərində öz ana dilinin rəsmi dil olması uğrunda mübarizə aparan 4 tələbənin öldürülməsi hadisəsini bir daha insanlara xatırladır.**



### Xalqımızın qədimliyindən xəbər verən söz sənəti

Dil ən vacib ünsiyyət vasitəsidir. Dünya yarandığı ilkin dönəmlərdə insanlar bir-birinə fikirlərini işarələrlə, əl, göz hərəkətləri ilə çatdırıblar. Zaman keçdikcə bu işarə və hərəkətlər səslərlə, səslərin birləşməsindən yaranan sözlərlə əvəz olunub. Beləcə, qədim xalqların danışıq dilləri yaranıb. Milli sərvətimiz, qürur mənbəyimiz olan Azərbaycan dilinin tarixi də bu qədər qədimdir. Çünki xalqımız sivilizasiyanın ən qədim xalqlarından biridir. Tarix faktları sevir. Qeyd etdiyimiz faktların həqiqət olduğunu sübut edən saysız-hesabsız mənbələr var. Dünya sivilizasiyasının ən nadir nümunələrindən olan Qobustan və Gəmiqaya təsvirləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qədimliyindən, zənginliyindən xəbər verir. Bu dəyərli abidələr göstərir ki, onları yaradan xalq həmin vaxtlar müxtəlif yazı növlərindən istifadə edirmiş. Tarixi mənbələr onu da sübut edir ki, qədim Manna dövlətində yerli yazı növündən, eləcə də heroqliflərdən istifadə olunurdu.

Dünyanın ən qədim yazılı abidələri, şifahi xalq ədəbiyyatı nümunələri içərisində Azərbaycan dilində yaranmış əsərlər əhəmiyyətli yerlərdən birini tutur. "Orxon-Yenisey", "Güntəkin" kimi qədim yazılı abidələr, Mahmud Kaşğarinin "Divanül-lüğətül-türk" kitabı, "Kitabi-Dədə Qorqud" kimi möhtəşəm söz sənəti abidəsi, eləcə də sonrakı dövrlərdə yazıb-yaradan şairlərimizin, yazıçılarımızın əsərləri xalqımızın qədim varlığının sübutudur.

### Ana dilimiz tarixin sınaqlarında...

Tarix göstərir ki, hər bir xalqın dili ünsiyyət vasitəsi olmaqla yanaşı, həm də onun milli varlığının göstəricisidir. Azərbaycan dili müxtəlif dönəmlərdə ağır sınaqlarla üzləşib. Vətənimiz əsrlərboyu başqa xalqların - ərəblərin, farsların və rusların istilasına məruz qalıb. Əsarət altında yaşamaq məcburiyyətində olduğu dövrlərdə də ulularımız öz milli-mənəvi dəyərlərini qorumaq üçün mücadilələr ediblər. Xalqımız tarixboyu ana dilinə məhəbbətlə yanaşıb, onun saflığını qorumağa çalışıb. Ulularımız buna görə əzab-əziyyətlərə sinə gəriblər. Bütün məşəqqətlərə baxmayaraq, Azərbaycan xalqı dilini və digər milli-mənəvi dəyərlərini qoruyaraq bugünkü nəslə çatdırıb. Beləcə, indiki ahəngdar, musiqili, təbiətdə mövcud olan bütün səslər dünyasını özündə əks etdirən zəngin ana dilimiz min illərin sınağından çıxıb. Azərbaycan dili yüz illərboyu formalaşıb, inkişaf edib. Bu gün dünyanın müxtəlif ölkələrində 50 milyondan çox azərbaycanlı yaşayır və Azərbaycan dilində danışır.

Dövlət statuslu dillərdən biri də Azərbaycan dilidir. Bu gün qürurla qeyd etdiyimiz bu faktın arxasında xalqımızın böyük mübarizələri, mücadilələri dayanır.

Hər bir dilin güclü inkişafında, zənginləşməsində, dövlət dili statusu qazanmasında onu təmsil edən xalqın müstəqil dövlətinin mövcudluğu zəruri rol oynayır. Bu mənada 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə dilimizin daha geniş şəkildə tətbiqi üçün münbit şərait yaranıb. Cümhuriyyət hökuməti 1918-ci il 27 iyun tarixli qərarı ilə Azərbaycan-türk dilini ölkə ərazisində rəsmi dövlət dili elan edib. Bu dil 1918-1920-ci illərdə dövlət dili kimi işlənib. Lakin 1920-ci il aprelin 28-də ölkəmiz imperiya qüvvələri tərəfindən işğal olunduqdan sonra Azərbaycan dilinin dövlət dili səviyyəsində işlənməsinə imkan verilməyib.

XX əsrin sonuncu onilliyində Azərbaycan xalqı yenidən öz azadlığı, dövlətinin müstəqilliyi uğrunda mübarizəyə qalxdı. Böyük çətinliklərlə arzusuna çatdı. Azərbaycan yenidən müstəqilliyinə qovuşdu. 1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasının referendum yolu ilə qəbul olunan Konstitusiyasında Azərbaycan dili rəsmi dövlət dili kimi təsbit edildi və rəsmi dövlət statusu aldı. Ümummilli Lider Heydər Əliyevin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli Fərmanında dövlət müstəqilliyinin rəmzlərindən sayılan Azərbaycan dilinin tətbiqi və inkişaf etdirilməsinə, ana dilimizin öyrənilməsi və cəmiyyətdə işlənmə mexanizminin təkmilləşdirilməsinə, eləcə də bu sahədə həyata keçiriləcək tədbirlərə nəzarətin gücləndirilməsinə dövlət qayğısı öz əksini tapdı. Fərmanın icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Dil Komissiyası yaradıldı, "Azərbaycan Respublikasında dövlət dili" haqqında qanun layihəsinin hazırlanması barədə aidiyyəti qurumlara göstərişlər verildi.

2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun qəbul edilib. Bu, Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində atılmış çox mühüm addım oldu.

Dilçiliyin inkişafı ilə əlaqədar Heydər Əliyevin 2 yanvar 2003-cü ildə imzaladığı "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi barədə Fərmanında da Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsinin müstəqil dövlətçiliyin başlıca əlamətlərindən biri sayıldığı, onun tətbiqi, qorunması, habelə inkişafına hərtərəfli dövlət qayğısı göstərildiyi vurğulanıb və müvafiq qurumlara bu sahədə konkret işlərin həyata keçirilməsi tapşırılıb.

Azərbaycan dilinin saflığının qorunması, tətbiqi və inkişafına dövlət səviyyəsində diqqət və qayğı sonrakı illərdə də davam etdirilib. Prezident İlham Əliyev 2004-cü il yanvarın 12-də "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncam imzalayıb. Sənədə əsasən dərslik, elmi əsər və lüğətlərin, bədii ədəbiyyat nümunələrinin latın qrafikalı yeni Azərbaycan əlifbası ilə çap olunaraq istifadəyə verilməsi milli ədəbi dilin daha da zənginləşməsi baxımından əhəmiyyətli olub.

Dövlət başçısının "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" 2012-ci il 23 may tarixli və "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" 2012-ci il 29 may tarixli sərəncamları ölkədə dil siyasətinin uğurla həyata keçirilməsi istiqamətində mühüm sənədlərdir.

Görkəmli şair Bəxtiyar Vahabzadə öz dilinə xor baxanları, ana dilini başqa dillərə qurban verənləri qınayırdı. Şair yazırdı:

*Mənim ana dilim - mənim kimliyim,*
*Pasportum, özümə öz hakimliyim.*
*Məni həm babamla, həm də nəvəmlə*
*Bağlayıb uzanan tarix bağımsan.*
*Dünənim, sabahım, üstəlik hələ*
*Mənim söz hünərim, söz bayraqdarımsan.*

Sevindirici haldır ki, Azərbaycan dili müstəqil bir dövlətin dilidir. Tarixin müxtəlif dönəmlərində təzyiqlərə məruz qalmasına baxmayaraq, milli dilimiz varlığını və özəlliyini qoruyub saxlaya bilib. Bu gün Azərbaycan dili dünyanın ən mötəbər tribunalarından eşidilir.

Ana dilimizin inkişafı və zənginləşdirilməsi dövlət başçısının diqqət mərkəzində saxladığı mühüm məsələlərdəndir. Hər bir azərbaycanlı vətəndaş borcunu yerinə yetirərək xalqımızın ən böyük mənəvi sərvəti olan ana dilini sevməli, onun qorunması və inkişafı üçün əlindən gələni əsirgəməməlidir. Bu yolla ana dilimizin saflığını qoruya, nəsildən-nəslə ötürə bilərik.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Baş Prokurorluq Vətən müharibəsində Ermənistanın cinayətkar əməllərinin ifşası məqsədi ilə üç dildə videoçarxlar hazırlayıb

Təcavüzkar Ermənistan Respublikasının beynəlxalq müstəvidə ifşa olunması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən kompleks tədbirlərin həyata keçirilməsi davam etdirilir. Həyata keçirilən bu tədbirlərin davamı kimi, Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən Azərbaycan, rus və ingilis dillərində videoçarx hazırlanıb. (#DontBelieveArmenia, #StopArmenianTerror, #ArmeniaisAgressor).

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, videoçarxda təxribatçı Ermənistan silahlı qüvvələrinin ordumuza və dinc əhaliyə qarşı törətdiyi cinayətlər barədə informasiyalar yer alıb.

Qeyd olunub ki, azərbaycanlı dinc əhalinin sıx yaşadığı rayon və şəhərlərin ərazisinə 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək Ermənistan silahlı qüvvələri tərəfindən vurulan zərbələr nəticəsində 30 minə yaxın mərmi və 227 raket atılıb. Vurğulanıb ki, mülki şəxslərin çoxsaylı əmlakına Ermənistanın silahlı birləşmələri tərəfindən ciddi ziyan vurulub, evlər, çoxmənzilli yaşayış binaları, qeyri-yaşayış sahələri dağıdılıb.

Həmçinin qeyd olunub ki, sentyabrın 27-dən noyabrın 10-dək Ermənistan silahlı birləşmələrinin dinc əhalini atəşə tutması nəticəsində 12-si azyaşlı və 27-si qadın olmaqla 93 nəfər qətlə yetirilib, 50-si azyaşlı və 101-i qadın olmaqla 407 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 24.02.2021-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

# Xalqımızın qəhrəmanlıq eposu "Koroğlu" "Azercell"in "Audiokitab" layihəsində

## Lider mobil operatorun təşəbbüsü və dəstəyi ilə ən sevilən folklor incilərimizdən biri bloger Azər Qəribin ifasında artıq "Bookmate" tətbiqində

**"Azercell Telekom" MMC xalqımızın mədəni irsinin qorunub saxlanması, istər yazılı, istərsə də şifahi xalq ədəbiyyatı nümunələrinin daha müasir və dinamik şəkildə oxuculara çatdırılması sahəsində növbəti təşəbbüslə çıxış edib.**




Bilavasitə şirkətin təşəbbüsü ilə ərsəyə gələn son layihə çərçivəsində xalqımızın vətənpərvərlik və qəhrəmanlıq tarixini təcəssüm etdirən "Koroğlu" dastanı fərqli və rəqəmsal formatda kitab həvəskarlarının ixtiyarına verilib. Epos səsli formatda işlənib hazırlanmış "Azercell"in "Bookmate" mobil tətbiqinin "Audiobook" ("Audiokitab") bölümünə yüklənəcək. "Koroğlu" dastanının 10 qolu tanınmış jurnalist və səyyah-bloger Azər Qəribin ifasında səsləndirilib, eposun bəzi bəndləri isə gənc bəstəkar və folkrok ifaçısı Vüsal Rzasoy tərəfindən eksklüziv musiqi nömrələri ilə ifa olunub. Bundan əlavə, bədii illüstrasiyalarla müşayiət edilən "Koroğlu" audiokitabı üçün hazırlanan təsvirlər üzərində gənc rəssamlar Bəxtiyar Zaidzadə və Zəhra Əzimzadə çalışıb.

Nəzərinizə çatdıraq ki, 21 fevral tarixində bloger Azər Qəribin rəsmi "Facebook" səhifəsində layihənin eksklüziv təqdimatı baş tutacaq. Layihəni "Azercell"in rəsmi Youtube kanalından da izləmək mümkün olacaq.

"Azercell" "Bookmate" mobil tətbiqinin Azərbaycandakı rəsmi tərəfdaşıdır. "Bookmate" məkandan və istifadə edilən cihazdan asılı olmayaraq, hətta oflayn rejimdə belə müxtəlif janrlarda 4 milyondan çox elektron və audio kitabı özündə cəmləşdirən zəngin elektron kitabxanadır. "Azercell" bu əməkdaşlığın ilk ilindən mobil kitabxananın Azərbaycan dilində olan kontentini zənginləşdirməyi hədəfləyib. İndiyədək "Azercell"in təşəbbüsü ilə onlarca əsər elektron və audiokitab versiyada tətbiqə yüklənib. Dahi şair-mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubiley ilində şairin məşhur qəzəl və rübailəri üç dildə səsləndirilərək "Bookmate" proqramının "Audiokitab" bölməsinə yüklənilmişdi.

"Azercell"in təqdimatında "Koroğlu" audiokitab layihəsi və digər faydalı materiallardan zövq almaq üçün https://www.azercell.com/az/personal/digital-solutions/bookmate.html səhifəsi vasitəsilə "Bookmate" tətbiqinə qoşulma qaydaları barədə ətraflı məlumat əldə etmək olar. Layihəmizin davamını izləyin!

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi tərəfindən açılması nəzərdə tutulan Abşeron DOST və 4 saylı Bakı DOST mərkəzləri üçün barelyeflərin hazırlanması işlərinin satın alınması məqsədilə elan edilən kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 10 fevral 2021-ci il qərarına əsasən, fiziki şəxs Mehdiyev İmran Yunis oğlu qalib elan edilmişdir.

Qalib şəxslə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## "Azərişıq" ASC Müxtəlif elektrik hesablama avadanlıqlarının və informasiya mübadiləsi sistemlərinin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "ASAN ödəniş" vasitəsilə həyata keçirə bilərlər. Müsabiqəyə daxil olduqdan sonra "ASAN ödəniş"lə "ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**LOT-1:** Müxtəlif elektrik hesablama avadanlıqlarının və informasiya mübadiləsi sistemlərinin satın alınması

**İştirak haqqı - 800 manat**
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Orxan İbrahimov (telefon: 440-39-93, daxili (28-15))
orxan.s.ibrahimov@azerishiq.az

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayışı (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir. (iri sahibkarlıq subyektləri qanuna əsasən elektron Portal vasitəsilə keçirilən tenderdə iştirak edə bilməz));*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Vergi Bəyannaməsi) (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *tələb olunan mallar üzrə mənşə və uyğunluq sertifikatları (Müvafiq mallar üzrə rəsmi partnyor, distribüter və ya istehsalçının rəsmi təmsilçisi olduğunu təsdiq edən sertifikat və ya məktub (tender təklifi ilə bərabər təqdim olunsun));*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar*

*(Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*

- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat*

*(Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*

- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir).*

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **16 mart 2021-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **31 mart 2021-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **01 aprel 2021-ci il saat 11:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***Qeyd:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

## BİLDİRİŞ

"Azərbaycan İnvestisiya Şirkəti" ASC tərəfindən dəftərxana və təsərrüfat mallarının, katriclərin, həmçinin katriclərin doldurulması xidmətinin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusu proseduru başa çatmışdır. Tender komissiyasının 29.01.2021-ci il tarixli qərarına əsasən, "Simplex" QSC kotirovka sorğusunun qalibi seçilmişdir.

Qalib şirkətlə 17.02.2021-ci tarixli müqavilə bağlanmışdır.

*Tender komissiyası*

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu PHŞ Yanğınsöndürmə balonlarının satın alınması ilə əlaqədar *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir.**
**İştirak haqqı: 100 (bir yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu -142330**
**Büdcə səviyyəsinin kodu - 4**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri* ***(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);***
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması* ***(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);***
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(2019 və 2020-ci il üzrə);***
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). 19.02.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;***
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *yanğınsöndürən balonların satışı və xidməti ilə əlaqədar müvafiq lisenziyanın təqdim olunması.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **15.03.2021-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **30.03.2021-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **31.03.2021-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

*Tender komissiyası*

## Bəhrəmtəpə Hidroqovşağının İstismarı İdarəsi *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti: 31.12.2021-ci il tarixə kimidir.
Əlaqələndirici şəxs: Fərzəliyev Abbas İbiş oğlu
Ünvan: İmişli rayonu, Qaradonlu kəndi
E-mail: behremtepehqii@mail.ru
Tel.: 0212421200
Tender 6 (altı) LOT üzrə keçiriləcək.

**LOT 1** - Cari təmir üçün tikinti materiallarının satın alınması
**LOT 2** - Əsaslı təmir üçün tikinti materiallarının satın alınması
**LOT 3** - Əsaslı və cari təmir ücün beton məmulatının satın alınması
**LOT 4** - Ehtiyat hissəsinin satın alınması
**LOT 5** - Lildən təmizlənmə işinin satın alınması
**LOT 6** - Suölçən qurğunun quraşdırılmasının satın alınması

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba hər LOT üzrə 100 (bir yüz) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Bank rekvizitləri:**
**Bəhrəmtəpə Hidroqovşağının İstismarı İdarəsi**
**VÖEN: 5500168661**
**H/h: AZ98CTRE00000000000002354002**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər.

*1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
*4. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
*4.1. Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (05 yanvar 2021-ci il tarixdən sonra alınmış);*
*4.2. Fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*4.3. Maliyyə vəziyyəti haqqında bank arayışı (05 yanvar 2021-ci il tarixdən sonra alınmış);*
*4.4. Son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmamasına dair arayış (05 yanvar 2021-ci il tarixdən sonra alınmış);*
*4.5. İddiaçının nizamnaməsi;*
*4.6. Dövlət reyestrindən çıxarış (qeydiyyatdan keçdiyi ölkə);*
*4.7. İddiaçının rekvizitləri.*

Malgöndərənlər (podratçılar) 1 və 4-cü bəndlərdə qeyd olunan sənədləri **12.03.2021-ci il saat 10:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Malgöndərənlər (podratçılar) öz tender təkliflərini **30.03.2021-ci il saat 10:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaqdır.

Tender təklifləri zərfləri **31.03.2021-ci il saat 10:00-da** elektron Portal vasitəsilə açılacaqdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Dövlət Vergi Xidmətinin Bakı şəhəri Kiçik Sahibkarlıqla İş üzrə Baş İdarəsi tərəfindən 02.02.2021-ci il tarixdə **www.etender.gov.az** portalında və "Azərbaycan" qəzetinin 23 (8616) sayında dərc edilmiş "Kuryer xidmətinin göstərilməsi"nə dair xidmətin satın alınmasına dair keçirilmiş kotirovka sorğusunda Tender komissiyasının qərarı ilə "Kuryer" MMC müsabiqənin qalibi elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

# DTX bəzi sosial media resurslarında erməni mənbələrinə istinadla yayılan əsassız xəbərlərlə bağlı məlumat yayıb

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Azərbaycana aid bəzi sosial media resurslarında erməni mənbələrinə istinadən guya "Ermənistan MTX-nin rəhbəri A.Abazyan, Rusiya sülhməramlı kontingentinin rəhbəri general R.Muradov, Azərbaycan DTX-nin sədri Əli Nağıyev və A.Arutyunyan arasında Suqovuşanda görüş planlaşdırılır" və bu kimi sair başlıqlarla yayılan həqiqətə uyğun olmayan məlumatlara münasibət bildirib.

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, Dövlət Təhlükəsizliyi Xidməti bu qəbildən olan xəbər və paylaşımları qəti şəkildə təkzib edir. Bildirilib ki, indiyədək Azərbaycan və Ermənistan təhlükəsizlik xidmətləri rəhbərlərinin baş tutmuş görüşləri barədə ictimaiyyətə ardıcıl məlumatlar verilib. Azərbaycanın dövlət maraqlarının, ərazi bütövlüyünün və təhlükəsizliyinin etibarlı təmin olunması ilə bağlı məsələlərin cəmiyyətdə həssaslıqla qarşılandığı nəzərə alınaraq, bundan sonra da belə görüşlər barədə ictimaiyyətə məlumatlar veriləcək.

"Bir daha ölkəmizin kütləvi informasiya vasitələrini və sosial medianı ümumdövlət mənafelərinə ziyan vuran, həmçinin düşmən dairələri tərəfindən bilərəkdən sosial şəbəkələrə ötürüldüyü istisna olunmayan, Azərbaycanda ictimai rəyi çaşdırmaq məqsədi güdən əsassız və dəqiqləşdirilməmiş xəbərləri yaymamağa çağırır, belə halların yolverilməzliyini qeyd etməklə yalnız dövlət qurumlarının rəsmi məlumatlarına istinad olunmasını xahiş edirik", - deyə DTX-nin məlumatında qeyd olunub.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev SOCAR-ın Sosial məsələlər üzrə vitse-prezidenti Bədəl Bədəlova qardaşı

**DÜNYAMALI BƏDƏLOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi SOCAR-ın Sosial məsələlər üzrə vitse-prezidenti Bədəl Bədəlova qardaşı

**DÜNYAMALI BƏDƏLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Sevil Həsənovaya anası

**LEYLA HƏSƏNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Sosial məsələlər üzrə vitse-prezidenti Bədəl Bədəlova qardaşı

**DÜNYAMALI BƏDƏLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5229
Sifariş 276
Qiyməti 40 qəpik